AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 YANVAR 2019-cu il CÜMƏ № 19 (6346) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib










**Yanvarın 24-də Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ərazidə inzibati-laboratoriya binası, yeməkxana, toxum saxlanma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satış mərkəzi yaradılıb. Burada ümumilikdə, 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev institutun binasının rəmzi açılışını bildirən lenti kəsdi.

İnstitutun laboratoriyalarında ən müasir cihaz və avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlərin həyata keçirilməsinə imkan verir. Burada, həmçinin virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkili üçün biotexnologiya laboratoriyası da qurulub.

Qeyd edək ki, bu institut Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 6 may tarixli qərarına əsasən tərəvəz, bostan və kartof bitkilərinin seleksiyası, toxumçuluğu, aqrotexnikası, bitki mühafizə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi məqsədilə yaradılıb. "Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq bu toxumçuluq kompleksi inşa olunub.

Prezident İlham Əliyevə Elektron kənd təsərrüfatı layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, bu layihənin məqsədi kənd təsərrüfatı fəaliyyətlərinin elektronlaşdırılmasını, məlumatların elektron qaydada tərtib edilərək araşdırılmasını təşkil etməkdən ibarətdir. Sistem kənd təsərrüfatı fəaliyyətləri istiqamətində məlumatları toplamaq, təhlil etmək, bu sistemin istifadəçilərinin məlumatlandırılmasını təmin etmək üçün xüsusi modulları özündə cəmləşdirir. İnstitut və onun tabeli qurumları - Lənkəran, Qusarçay, Tovuz bölgə zona təcrübə stansiyaları, Şəmkir dayaq məntəqəsi və Abşeron yardımçı təcrübə təsərrüfatı tərəfindən tərəvəz sortlarının ilkin toxumçuluğunun elmi əsaslarla işlənib hazırlanması, superelit və elit toxum istehsalına elmi-metodiki kömək göstərilməsi, müxtəlif çeşidli tərəvəz növlərinin emal texnologiyasının öyrənilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalatda tətbiqinə metodiki rəhbərlik həyata keçirilir. İstixana və açıq sahə şəraitində tərəvəz, bostan və kartof bitkilərinin yeni sort və hibridlərinin yaradılması, onların toxumçuluğunun standartlara uyğun təşkili nəzərdə tutulur. Hazırda burada 158 nəfər çalışır ki, onlardan da 17-si elmi işçi, 2-si elmlər doktoru, 15-i isə fəlsəfə doktorudur. Kompleksə daxil olan toxum emalı məntəqələrində respublikada ilk dəfə tərəvəz toxumlarının müasir avadanlıqlarla emal olunması və paketlənməsi nəzərdə tutulub.

İnstitutun ərazisində 30 hektar açıq sahədə, 6,14 hektarda isə istixana şəraitində tərəvəz və kartof bitkilərinin toxumçuluq sisteminin təşkili məqsədilə kompleks inşa olunub.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının, aqrar sahənin inkişafı istiqamətində mühüm işlər görülür. Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun yenidən qurulması, "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin yaradılması da bu istiqamətdə icra olunan layihələrdən biridir. Belə müasir kompleksin yaradılması ölkəmizdə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyacı ödəmək, toxumluq məhsulların istehsalını artırmaq baxımından mühüm rola malikdir. Müxtəlif bitki sortlarının toxumlarının istehsalı və saxlanılması üzrə bu cür ixtisaslaşmış müəssisələrin yaradılması qeyri-neft sektorunun mühüm sahələrindən olan kənd təsərrüfatının inkişafında da böyük əhəmiyyət daşıyır. Bundan başqa, belə tədbirlər həm də idxaldan asılılığı azaltmaqla, ölkəmizin ixrac potensialının artırılmasına, ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasına da töhfə verir.

Prezident İlham Əliyevə Aqrar İnkişaf Könüllüləri layihəsinin məqsədi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, bu layihənin həyata keçirilməsində məqsəd aqrar sektorun inkişafına ictimai dəstək göstərmək, aqrar sahədə könüllü cəmiyyəti formalaşdırmaqdır.

**(davamı 2-ci səhifədə)**

## Tofiq Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin fevral ayında Azərbaycanın görkəmli kino rejissoru, Əməkdar incəsənət xadimi, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadənin anadan olmasının 100 illiyi tamam olur.

Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək nadir istedada malik rejissor kimi özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirmiş və mədəniyyət tariximizdə dərin iz qoymuşdur. Sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", "Yeddi oğul istərəm" və "Dədə Qorqud" filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qazandığı nailiyyətlərlə ölkə kinematoqrafiyasının daha da zənginləşməsi işinə dəyərli töhfələr vermiş Xalq artisti Tofiq Tağızadənin anadan olmasının 100-cü ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 24 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib





(əvvəli 1-ci səhifədə)

Bununla da, gələcəkdə bu sahədə fəaliyyət göstərəcək ixtisaslaşmış kadrların yaranmasına təkan vermək, innovativ texnologiyaların təbliği ilə bu sahənin dayanıqlı inkişafına nail olmaqdır.

Sonra dövlətimizin başçısı Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşdü.

**Könüllü Sarvan CƏBRAYILZADƏ çıxış edərək dedi:**

- Möhtərəm cənab Prezident.

Sizi aqrar inkişaf könüllüləri adından salamlayırıq. Hərəkatımız aqrar sahədə inkişafa dəstək məqsədi daşıyır. Biz artıq 35 regionda təşkilatlana bilmişik. Biz dörd aydır ki, fəaliyyətə başlamışıq. Bu qısa müddətə baxmayaraq, sıralarımıza 600 gənci cəlb edə bilmişik. Üç il ərzində 10 mindən çox gənci öz sıralarımıza cəlb etməyi nəzərdə tutmuşuq. Bizim könüllülərimiz Dövlət Aqrar İnkişaf Mərkəzlərində (DAİM) fəaliyyət göstərirlər. DAİM-lərdə biz fermerlərin yanında oluruq, onlara dəstək veririk, eyni zamanda, özümüz də aqrar sahədə təcrübə qazanırıq. Əminik ki, Sizin xeyir-duanızla, dəstəyinizlə biz daha böyük nailiyyətlərə çata bilərik. Biz könüllülər olaraq həm də fəal maarifləndirmə işi aparırıq. Könüllülərimiz regionlarda fermerlərə aparılan islahatların mahiyyəti barədə məlumat verirlər. Nəticədə fermerlərimiz bu islahatlarla tanış olurlar. Həmçinin könüllülərimiz aqrar sahədə müəyyən təcrübə qazanırlar.

* * *

**Könüllü Rübabə YUSİFOVA dedi:**

- Möhtərəm cənab Prezident, aqrar inkişaf könüllüləri aqrar təşəbbüsləri dəstəkləyirlər. Dövlətimizin biz gənclərə hədəflənən layihələri var. Könüllülərimizi bu layihələrdə iştirak etməyə çağırırıq. Bilirik ki, könüllülük fəaliyyəti bizim mütəxəssis kimi formalaşmağımıza kömək edəcək. Hədəflərimiz bəllidir. Regionlarda gənclər arasında məşğulluğu artırmaq istəyirik. Bilirik ki, könüllülük hərəkatına xüsusi dəstək verirsiniz. Göstərdiyiniz bu diqqət biz könüllüləri daha fəal çalışmağa sövq edir. Bu diqqətə görə könüllülər adından Sizə dərin təşəkkürümüzü bildiririk.

* * *

**Prezident İlham ƏLİYEV çıxış edərək dedi:**

- Çox sağ olun, mən sizi ürəkdən salamlayıram. Çox şadam ki, Azərbaycanda Aqrar İnkişaf Könüllüləri hərəkatı başlayır. Əminəm ki, bu hərəkatın çox böyük gələcəyi olacaq. Ümumiyyətlə, Azərbaycanda könüllülərin sayı artır və bu, çox sevindirici haldır. Bildiyiniz kimi, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət" mərkəzlərində başlamışdır və çox geniş vüsət almışdır. Bu günə qədər minlərlə könüllü "ASAN xidmət"də fəaliyyət göstərmiş və indi müxtəlif vəzifələrdə uğurla çalışır. Könüllülər bizə, eyni zamanda, mötəbər beynəlxalq tədbirlərin keçirilməsində yardımçı olublar, xüsusilə Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında. Bu Oyunların hazırlanmasında və keçirilməsində könüllülərin çox böyük zəhməti, payı olub. Bildiyiniz kimi, mən onların hər birini fəxri diplomlarla təltif etmişəm. Bu gün aqrar sahədə də könüllülər öz sözünü deməyə başlayır. Mən bu təşəbbüsü çox alqışlayıram. Çünki bölgələrdə yaşayan gənclər bu işlərə qoşularaq aqrar sahədə böyük uğurlara nail ola bilərlər.



Aqrar sahə bizim üçün strateji sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın.

Bu gün biz Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında bu məsələləri önə çəkmişik. Bu gün biz bu gözəl müəssisənin timsalında aqrar sahədə aparılan işləri görürük. Çünki bu institut 1960-cı illərdə yaradılmışdır və demək olar ki, son illərdə fəaliyyət göstərmirdi, bura dağınıq bir yer idi. 2016-cı ildə bu institutun müasir səviyyədə qurulması üçün müvafiq Sərəncam imzalanmışdır, işlər başlamışdır və indi 30 hektar ərazidə ən müasir mərkəz yaradılıbdır - istixanalar, institutun gözəl binası, laboratoriyalar. Bu institutun fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki ilk dəfə olaraq Azərbaycanda toxumçuluq istixanaları yaradılır. Hazırda bizdə istixanaların sayı çoxdur və indi tərəvəzçiliyə böyük maraq var. Toxumçuluq istixanalarının yaradılması isə ancaq bu gündən başlayır və bu mərkəz ölkəmizin hər bir bölgəsinə dəstək olacaq.

Tərəvəzçilik bizim kənd təsərrüfatının ənənəvi sahəsidir, böyük gəlir gətirən sahədir. Yəqin siz bilirsiniz ki, kənd təsərrüfatı məhsulları arasında bizə ən çox gəlir gətirən pomidor ixracıdır. Fermerlər bu işlə böyük həvəslə məşğuldurlar və digər tərəvəzlərin yetişdirilməsi çox sürətlə gedir. Biz ildən-ilə istehsalı artırırıq. Bu institutun fəaliyyəti məhsuldarlığı böyük dərəcədə artıracaq, eyni zamanda, xaricə gedən valyutanın qarşısını müəyyən qədər alacaq. Çünki bu gün bütün toxumlar xaricdən gətirilir və onların alınmasına böyük məbləğdə vəsait gedir. Bundan sonra toxumların əhəmiyyətli hissəsi ölkəmizdə yetişdiriləcək, beləliklə, valyuta gətirəcək, məşğulluq, məhsuldarlıq artacaq və biz özümüzü bundan sonra tam təmin etməklə xarici bazarlara daha böyük ixrac imkanlarımızla çıxacağıq. Məqsədimiz bundan ibarətdir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Bu sahədə, sənaye sahəsində də müsbət meyillər var. Bildiyiniz kimi, bu yaxınlarda Sumqayıtda karbamid zavodu açılmışdır. Bu, qeyri-neft sektorunda həyata keçirilən ən böyük layihədir. Biz özümüzü azot gübrələri ilə tam təmin edəcəyik. Eyni zamanda, təqribən 150-160 milyon dollar dəyərində məhsul ixrac edəcəyik. Azərbaycanda pivot suvarma sistemləri, pestisidlər zavodları fəaliyyət göstərir. Yəni, sənaye istehsalı da kənd təsərrüfatını dəstəkləyir, ona lazımi şərait yaradır. Əlbəttə, sizin kimi gənclərin bu işlərdə fəal iştirakı hesab edirəm ki, uğurun əsas şərti, əsas amili olacaq.

Mən çox şadam ki, Azərbaycan gəncləri aqrar sahəyə çox böyük maraq göstərirlər. Bu, Azərbaycanda doğrudan da bir yenilikdir. Əvvəllər hesab olunurdu ki, aqrar sahə o qədər də cəlbedici, o qədər də maraqlı deyil, hətta hesab olunurdu ki, o qədər də gəlir gətirən sahə deyil. Ancaq baxır sən buna necə yanaşırsan. Əgər dövlət kənd təsərrüfatına dəstək verirsə, həm gəliri olacaq, həm maraqlı olacaq, həm də ki, özünü innovasiyalarla təmin edəcək.

Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var - subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Texnikalar alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur.

İnstitutun binasında mənə Elektron Kənd Təsərrüfatı layihəsi təqdim edilmişdir. Yəni, fermerlər üçün tam yeni şərait yaradılır və beləliklə, kənd təsərrüfatı çox cəlbedici sahə olacaq. Azərbaycan vətəndaşları görəndə ki, sizin kimi savadlı, bilikli gənclər bu sahəyə maraq göstərirlər, əminəm ki, maraq daha da böyük olacaq.

Mən çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl institutun yenidənqurmadan sonra açılışında iştirak edirik. Onu da bildirməliyəm ki, hazırda Kənd Təsərrüfatı Nazirliyində və digər dövlət qurumlarında struktur islahatları aparılır. Bu islahatların bir məqsədi var ki, biz işimizi daha da yüksək səviyyədə quraq. Onu da bildirməliyəm ki, mövcud strukturlarda, ixtisar olunan strukturlarda çalışan vətəndaşlar işlə təmin olunacaqlar. Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın. Yəni, o müəssisələrdə, o xidmətlərdə, agentliklərdə çalışan vətəndaşlar bilsinlər ki, onların məşğulluğu daim diqqət mərkəzindədir.

Sizi bir daha salamlayıram, təbrik edirəm. Siz Azərbaycanın müxtəlif bölgələrində işləyəcəksiniz və ümumi işimizə öz töhfənizi verəcəksiniz. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**



## Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 8, maddə 612; 2011, N 12, maddə 1108; 2012, N 6, maddə 501; 2017, N 5, maddə 732, N 7, maddə 1298; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.0.2-ci, 17.2.1-ci, 20.5-ci və 138.3-cü maddələrdə "özəl" sözü "xüsusi" sözü ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 10.0.8-1-ci və 10.0.8-2-ci maddələr əlavə edilsin:

"10.0.8-1. çoxmənzilli binanın idarə edilməsi qaydasını müəyyən etmək;

10.0.8-2. çoxmənzilli binanın idarə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən etmək;".

**3.** 41.6-cı maddədə "üstün hüquqa" sözləri "üstünlük hüququna" sözləri ilə əvəz edilsin.

**4.** 44.3-cü maddədə "(kvorum yaranır). Kvorum" sözləri "(yetərsay yaranır). Yetərsay" sözləri ilə və "təkrar" sözü "yenidən" sözü ilə əvəz edilsin.

**5.** 109.5-ci maddədə "kooperativi qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməlidir" sözləri "kooperativinin qanunla müəyyən olunmuş qaydada ləğvi və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilərək, hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında qanunvericiliyə uyğun olaraq zəruri tədbirlər görülməlidir" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 dekabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1394-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1394-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 10.0.8-2-ci maddəsinə uyğun olaraq, çoxmənzilli binanın idarə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 yanvar 2019-cu il.**

*Prezident İlham ƏLİYEV:*

# Bizim atdığımız bütün addımlar sosial xarakter daşıyır və sosial ədaləti tərənnüm edir




**Bizim atdığımız bütün addımlar sosial xarakter daşıyır və sosial ədaləti tərənnüm edir. Çünki yaxşı yaşayan vətəndaşlar dövlətə daha çox töhfə verməlidir, daha çox vergi ödəməlidir, daha çox kommunal xərcləri olmalıdır. Ancaq aztəminatlı təbəqə, orta təbəqə dövlət tərəfindən qorunmalıdır və qorunur. Bu, sosial ədalət prinsipidir. Biz bu yolla gedirik. Biz bazar iqtisadiyyatı prinsipi əsasında yaşayırıq, eyni zamanda, vətəndaşların sosial təminatı da daim diqqət mərkəzindədir. Beləliklə, biz həm sosial məsələlərin həlli, həm də iqtisadi inkişaf ilə bağlı siyasətimizi gələn illərdə də davam etdirəcəyik.**

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 77-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2016-cı il dekabrın 2-də Zərdab Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin noyabr ayından dekabradək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Belarus Respublikasının Prezidenti və İsrail Dövlətinin Baş naziri ilə apardığı danışıqlar, habelə imzalanan sənədlər barədə informasiyalar, dövlət və hökumət başçılarının mətbuata bəyanatlarının mətnləri daxil edilib. Nəşrdə, həmçinin Prezident İlham Əliyevin “Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda iştirak edən bir qrup din xadimini, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibini, ABŞ və Böyük Britaniyanın yüksəkvəzifəli nümayəndə heyətlərini qəbul etməsi barədə materiallar yer alıb.

Oxucular bu kitabda ölkə rəhbərinin Füzuli, Tərtər və Ağdam rayonlarına səfərləri zamanı 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhənin təmas xəttində törətdiyi təxribatlar nəticəsində ziyan dəymiş evlərin tikintisi və bərpası ilə tanışlığı, xəstəxanalara gedərək Aprel döyüşlərində yaralanmış əsgərlərə baş çəkməsi, həmçinin bölgələrdə iqtisadi və sosial infrastruktur, mədəniyyət obyektlərinin, təhsil müəssisələrinin yeni binalarının açılışlarında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla tanış ola bilərlər.

Kitabda dövlətimizin başçısının “Teatr və multikulturalizm” mövzusunda keçirilən IV Bakı Beynəlxalq Teatr Konfransının, “Bakutel-2016” XXII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi və konfransının iştirakçılarına müraciətlərinin, Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının birgə açılışı mərasimindəki nitqinin mətnləri də toplanıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 77-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Xızıda vətəndaşların müraciətlərini dinləyib

**Yanvarın 24-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzülərək, xatirəsi ehtiramla anılıb.

Görüşdə Xızı ilə yanaşı, Abşeron, Qubadlı, Zəngilan, Şuşa rayonlarının və Sumqayıt şəhərinin də sakinləri iştirak ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi və işə qəbul kimi məsələləri əhatə edib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb.

Qeyd edək ki, görüş mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilib.

Regiona səfəri çərçivəsində Ramin Quluzadə aidiyyəti rayonların telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib.

Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb.

Toplantıda nazir müvafiq sahə rəhbərlərinə hər bir vətəndaş müraciətinin operativ araşdırılması və qanunvericiliyə uyğun həll edilməsi haqqında tapşırıqlar verib.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ötən ilin yekunları müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərtərəfli diqqəti və qayğısı sayəsində məcburi köçkünlərin problemlərinin həlli istiqamətində məqsədyönlü iş aparılır, bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məşğulluğunun təmin edilməsi, sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının apardığı islahatlar məcburi köçkünlərlə iş sahəsində uçot və nəzarətin, ədalət və şəffaflıq prinsiplərinin tam bərqərar edilməsinə yönəldilib. Eyni zamanda, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın hələ də ən ağır vəziyyətdə, həyat üçün təhlükəli olan, qəzalı bina və tikililərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərə yeni mənzillərin, ilk növbədə, verilməsi barədə tapşırığının icrası davam etdirilir. Ötən ilin sonunda Abşeron rayonunda və Sumqayıt şəhərində məcburi köçkünlər üçün yeni yaşayış kompleksi istifadəyə verilib, bu yaxınlarda isə Qaradağ rayonunun Ümid qəsəbəsində 300 ailənin yeni mənzillərə köçürülməsinə başlanılıb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yanvarın 24-də keçirilən növbəti kollegiya iclasında danışılıb.

Prezident İlham Əliyevin məcburi köçkünlərlə bağlı siyasətinin uğurlu nəticəsi kimi indiyədək 102 yeni qəsəbənin salındığını, bu kateqoriyadan olan üç yüz minədək vətəndaşın mənzil şəraitinin əsaslı şəkildə yaxşılaşdırıldığını qeyd edən Dövlət Komitəsinin sədri Rövşən Rzayev 2019-cu ildə də həmin məsələlərin həlli üçün büdcədən böyük vəsait ayrıldığını diqqətə çatdırıb, ayrılan vəsaitdən səmərəli istifadə edilməsinin zəruriliyini qeyd edib. Bildirilib ki, dövlətimizin başçısı məcburi köçkünlərlə iş sahəsində vəziyyəti daim nəzarətdə saxlayır və bu işdə hər hansı yanlış və neqativ yanaşmanın təkrarlanmasına yol verilməyəcək.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqram”ında və Dövlət Proqramına Əlavələrdə nəzərdə tutulan tədbirlərin icrası sahəsində 2018-ci ildə görülmüş işlər, yeni salınmış qəsəbələrdə məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi, büdcə vəsaiti və investisiya xərcləri hesabına aparılan təmir-tikinti işləri, insan resurslarının idarə edilməsi və digər məsələlər müzakirə olunub, Dövlət Komitəsi kollegiyasının 2019-cu il üçün iş planı təsdiqlənib.

Gündəlikdəki məsələlər barədə müvafiq strukturların rəhbərlərinin məruzələri dinlənilib, ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinin gedişi, məcburi köçkünlərlə işin konkret istiqamətləri üzrə mövcud vəziyyət ətraflı təhlil edilib, həlli vacib məsələlərin əhatəsi bir daha dəqiqləşdirilib, aidiyyəti bölmələrin fəaliyyətinin təkmilləşdirilməsi, cavabdeh şəxslərin məsuliyyətinin artırılması üçün ciddi tapşırıqlar verilib.

**AZƏRTAC**

# Bakı Şəhər Prokurorluğunda geniş əməliyyat müşavirəsi keçirilib



**Yanvarın 24-də Bakı Şəhər Prokurorluğunda mərkəzi aparatın və ərazi rayon prokurorluqları işçilərinin iştirakı ilə 2018-ci ildə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyətinə və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov bildirib ki, hesabat dövründə şəhərin prokurorluq orqanları cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində paytaxtın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək müəyyən nəticələr əldə edib.

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, müşavirədə 2017-ci ildə şəhər ərazisində prokurorluq və polis orqanları üzrə 12 min 122 hadisənin qeydə alındığı halda ötən il 309 hadisə (2,5 faiz) az - 11 min 813 hadisənin baş verdiyi qeyd edilib. Vurğulanıb ki, qeydə alınmış cinayətlərin açılma faizi 0,2 faiz artaraq 80,2 faiz, ağır və ya xüsusilə ağır cinayətlərin sayı isə 582 hadisə və ya 30,8 faiz azalaraq 1308 olub.

Bildirilib ki, 2018-ci ildə qeydə alınmış 66 qəsdən adamöldürmə cinayətinin (2017-ci ildə 59 hadisə) 4-ü istisna olmaqla (3 fakt şəxslərin xəbərsiz itkin düşməsi ilə bağlı olub), habelə 32 qəsdən adam öldürməyə cəhd cinayətinin (2017-ci ildə 38 hadisə) açılması təmin edilib. Hesabat dövründə 76 quldurluq hadisəsi baş verib ki, bu da əvvəlki illə müqayisədə 8 hadisə çoxdur. Quldurluq hadisələrindən 8-i, qeydə alınmış ölümlə nəticələnən 212 yol-nəqliyyat hadisəsindən isə 3-ü bağlı qalıb. Ötən il şəhərin prokurorluq və daxili işlər orqanları tərəfindən istintaq edilmiş işlərin təhlili göstərir ki, prokurorluqda icraatda olan 1115 işdən 547-si, daxili işlər orqanlarının istintaq aparatlarının icraatında olan 12 min 390 cinayət işindən 4226-nın istintaqı tamamlanıb.

Məlumat verilib ki, 2018-ci ildə baş vermiş cinayətlər nəticəsində prokurorluqda, o cümlədən Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsində aparılan cinayət işləri üzrə fiziki və hüquqi şəxslərə vurulmuş 6 milyon 518 min manat maddi ziyandan 4 milyon 386 min manatı (67,3 faiz), polis orqanlarında aparılan işlər üzrə isə vurulmuş 28 milyon 862 min manat maddi ziyandan 25 milyon 80 min manatı (86,9 faiz) istintaq zamanı ödətdirilib.

Diqqətə çatdırılıb ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları rəhbər tutularaq, müraciətlərin obyektiv araşdırılması, mütəmadi qaydada Bakı şəhər və rayon prokurorluqlarında, eləcə də yaşayış yerlərində vətəndaşların qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılıb, şikayətləri yaradan səbəblərin aradan qaldırılmasına, qanunauyğun və ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilib. Hesabat dövründə şəhər prokurorluğu orqanlarına 15 min 745 müraciət daxil olub. Həmin müraciətlərdən 4105-i həll edilib, o cümlədən 1404 müraciət təmin olunub. İl ərzində 5866 vətəndaş qəbul edilib.

Müşavirədə hesabat dövründə əldə edilmiş müsbət nəticələrlə yanaşı, yol verilmiş nöqsanlar da hər bir rayon prokurorunun diqqətinə çatdırılıb. Eyni zamanda, qəsdən adamöldürmə, quldurluq və yol-nəqliyyat hadisələrindən bağlı qalan cinayət faktlarının, eləcə də bağlı qalan oğurluq hadisələrinin tezliklə açılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi, habelə axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılmasının, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayət nəticəsində vurulmuş ziyanın istintaq zamanı ödətdirilməsi sahəsində nöqsanların aradan qaldırılmasının zəruriliyi vurğulanıb. Həmçinin istintaq və təhqiqat fəaliyyətində aşkarlanmış nöqsanlar, qanun pozuntuları, süründürməçilik halları təhlil edilərək onların aradan qaldırılması tələb olunub.

Əməliyyat müşavirəsində bildirilib ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb. Ötən il müxtəlif xətalar törətdiklərinə görə Azərbaycan Respublikası baş prokurorunun müvafiq əmrləri ilə 12 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb olunub. Onlardan 3 nəfər tutduğu vəzifədən azad olunub, 2 nəfər prokurorluq orqanlarından xaric edilib.

Tələb edilib ki, şəhər prokurorluğunun bütün struktur qurumlarında xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və mənfi təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Bakı şəhər prokurorunun müavini Azər Əsgərov, paytaxtın rayon prokurorları hesabat dövründə görülmüş işlər, yol verilmiş nöqsanlar və qarşıda duran vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.

Əməliyyat müşavirəsinə yekun vuran Bakı şəhər prokuroru İlqar Abbasov hər bir prokurorluq əməkdaşının prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən böyük etimadı doğruldacağına, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində öz qulluq və vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edib.

**AZƏRTAC**

*Edqars Rinkeviçs:*

# Azərbaycan Latviya üçün mühüm tərəfdaşdır

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Latviya xarici işlər naziri Edqars Rinkeviçs iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə təbrik məktubu mübadiləsi həyata keçiriblər.**



Azərbaycanın Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov məktubda Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü münasibətilə öz həmkarı Edqars Rinkeviçsi təbrik edib, dost Latviya xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayıb. Məktubda Elmar Məmmədyarov Azərbaycan-Latviya münasibətlərinin dərin tarixi köklərə malik olduğunu qeyd edib, hər iki dövlət müstəqilliyini bərpa etdikdən sonra siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib.

Latviya xarici işlər naziri Edqars Rinkeviçs Azərbaycanın Latviya üçün mühüm tərəfdaş olduğunu vurğulayıb. O, ötən 25 il ərzində siyasi, iqtisadi, mədəniyyət və təhsil sahələrində konkret nəticələr görməkdən böyük məmnunluq duyduğunu və iki ölkə arasında əməkdaşlığın gələcək illərdə daha da möhkəmlənəcəyindən əmin olduğunu qeyd edib.

Qeyd edək ki, Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlər 1994-cü il yanvarın 11-də qurulub.

**AZƏRTAC**

# Dövlətqaçqınkoma ayrılan vəsaitlərin istifadəsinə dair auditin nəticələri müzakirə olunub

**Hesablama Palatasının kollegiya iclasında 2016-cı il aprelin 1-dən ötən il aprelin 1-dək olan dövrdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə və tabeliyindəki qurumlara dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə dair auditin nəticələri müzakirə edilib.**

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müzakirə zamanı auditi həyata keçirmiş qrupun məlumatı dinlənilib və fəaliyyət istiqaməti üzrə müvafiq auditorun hesabatı təsdiq edilib. Audit 2016-2017-ci illər və 2018-ci ilin birinci rübü üzrə ümumilikdə 515 milyon 30,8 min manat vəsaiti əhatə edib. Audit nəticəsində normativ hüquqi aktların, eləcə də normativ-metodiki sənədlərin tələblərinə əməl edilməsi ilə yanaşı, bəzi nöqsanlara yol verildiyi, komitə tərəfindən əvvəlki auditin nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlərin tam görülmədiyi, bəzi nöqsanların və artıqödəmələrin təkrarlandığı müəyyən olunub. Komitə və onun tabeliyində olan qurumların bəzi əməkdaşlarının dövlət qulluğuna qəbul və onlara ödənilən əməkhaqqı xərcləri qanunvericiliyin tələbləri nəzərə alınmadan həyata keçirilib, aparat işçilərinin ezamiyyə və nəqliyyat vasitələrinin yanacaq xərclərində artıq ödənişlərə yol verilib.

Prezident İlham Əliyevin 2017-ci il 23 yanvar tarixli “Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında” Fərmanına əsasən, 2017-ci il yanvarın 1-dən məcburi köçkünlərin yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə ödənişlər əvəzinə vahid aylıq müavinət müəyyənləşdirilməsi təsbit edilsə də, müavinət almaq hüququ olmayan şəxslər üzrə də kommunal xidmət haqları ödənilib. Yemək xərci üçün müavinət alan məcburi köçkünlərin adlı siyahıları ilə əraziləri işğal olunan rayonlar üzrə vəfat etmiş şəxslərin adlı siyahılarının üzləşdirilməsi zamanı müəyyən olunub ki, bir sıra hallarda məcburi köçkünün vəfat etdiyi tarixdən sonra müavinət ödənişləri davam etdirilib, nəticədə dövlət büdcəsindən artıq müavinət ödənişinə yol verilib. Həmin vəsait müvafiq qaydada komitə tərəfindən dövlət büdcəsinə bərpa edilib.

Hesablama Palatası tərəfindən komitədə həyata keçirilmiş əvvəlki, eləcə də hazırkı nəzarət tədbirləri zamanı müəyyən edilib ki, kommunal xidmətlər üzrə adlı siyahılarda məcburi köçkünlərin ad, soyad və ata adları düzgün göstərilməyib, eyni şəxslərin adları dəfələrlə təkrarlanıb, vəfat edib, hərbi xidmətə çağırılıb, uzun müddət ərzində xarici ölkələrə getmiş və güzəştli kommunal xidmət hüququnu itirmiş məcburi köçkünlərin adları siyahılardan tam çıxarılmayıb. Qanunvericilikdə tələb olunmasına baxmayaraq adlı siyahıların dəqiqləşdirilməsi müntəzəm olaraq həyata keçirilməyib.

Seçmə qaydada 7 ali təhsil müəssisəsi üzrə təhsil haqqından azad olmaq üçün təqdim edilmiş məcburi köçkün vəsiqələri barədə məlumatlar komitənin müvafiq elektron məlumat bazası ilə üzləşdirilərkən 15 tələbənin ad, soyad və ata adları bazada aşkarlanmayıb, təsdiq edilmiş müvafiq protokollarda isə həmin tələbələrə verilmiş məcburi köçkünlüyü müəyyən edən vəsiqənin daha əvvəl başqa şəxslərə verildiyi öz əksini tapıb.

Hesablama Palatasının kollegiyası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və tabeliyində olan qurumlar tərəfindən artıqödəmələrin audit dövründə bərpasının nəzərə alınması və yol verilmiş nöqsanların qısa müddətdə aradan qaldırılması, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinata uyğun xərclənməsinə və kommunal xidmət haqlarının yalnız qanunvericiliklə şamil edilən kontingent üzrə müvafiq normalar həddində ödənilməsinə ciddi nəzarətin təmin edilməsi, məcburi köçkünlərin adlı siyahılarının dəqiqləşdirilməsi, təkrarlanmaların qarşısının alınması, eləcə də dövlət vəsaiti hesabına kommunal xidmət göstərilən kontingentin dəqiq uçotunun aparılması məqsədilə vahid informasiya şəbəkəsinin yaradılması, komitənin strukturuna daxil olan qurumların işçi və texniki ehtiyatları mövcud olduğu halda fiziki və hüquqi şəxslərlə müqavilələr bağlanılması hallarının aradan qaldırılması və lüzumsuz xərclərə yol verilməsinin qarşısının alınması, dövlət büdcəsindən ayrılan vəsaitlərin məqsədyönlü və qənaətli istifadə edilməsi, həmçinin nöqsanlara yol vermiş vəzifəli şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi, verilmiş məcburi köçkün vəsiqələri barədə faktlar üzrə müəyyən edilmiş hüquq pozuntularının ciddiliyini nəzərə alaraq müvafiq materialların Baş Prokurorluğa göndərilməsi barədə qərar qəbul edib. İcra olunması və həyata keçirilmiş tədbirlər barədə Hesablama Palatasına məlumat verilməsi məqsədilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə kollegiya qərarının surəti göndərilib.

Auditin nəticələri ilə bağlı Milli Məclisə də məlumat verilib.

**AZƏRTAC**

*Cəlil Məmmədquluzadə - 150*

# Xalq azadlığının carçısı "Molla Nəsrəddin" jurnalının təsir dairəsi

> **Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

**(əvvəli 24 yanvar tarixli sayımızda)**

"Molla Nəsrəddin"in hər yerdə rəğbətlə qarşılanmasının bir sirri də onun cəsarətli çıxışları, yoxsul kütlələrin istəklərinin qüdrətli tərcümanı olmasında idi. Özbək xalqı "Molla Nəsrəddin"ə özünün havadarı kimi baxır, onun hər nömrəsini səbirsizliklə gözləyirdi.

"Molla Nəsrəddin" Buxara əmirləri və din xadimlərinin özbaşınalığını, əxlaqsızlığını və riyakar siyasətini müntəzəm ifşa etməklə xalqın gözünü açır, onları sıx birləşməyə çağırırdı.

"Yamaq", "Osmanlı ilə İtaliyə davası", "Köhnə il" kimi felyetonlarında və bir çox karikaturalarda Buxara əmiri Əhəd xanın, Səmərqənd müftisi Məhəmməd Bəqa Xacənin və b. özbək xalqının başına gətirdiyi müsibətlər kəskin tənqid olunur. "Molla Nəsrəddin" jurnalının 1909-cu il tarixli 18-ci nömrəsində karikaturalardan birində buxaralılar qoyun şəklində təsvir olunur. Buxara əmiri qoyunun başından, qazısı isə ayaqlarından möhkəm tutub yerə yıxıblar. Çar məmuru arxayın-arxayın qoyunu qırxır.

"Molla Nəsrəddin" jurnalı özbək xalqının siyasi-ictimai həyatına və məişətinə müntəzəm müdaxilə etməklə xalqın ictimai fikrinə ciddi təsir göstərirdi. Özbək şairi M.Məhəmmədcanov haqlı olaraq yazır ki, "Muştum" (1922) özbək satirik jurnalı köhnə feodal-patriarxal həyatın qalıqlarına və mürtəce adət-ənənələrə qarşı mübarizədə ancaq "Molla Nəsrəddin"dən ilham almışdır.

"Molla Nəsrəddin" türkmən xalqı arasında da geniş yayılmışdı. Azərbaycan-türkmən ədəbi əlaqələrinin görkəmli tədqiqatçısı Əkbər Ruhi "Molla Nəsrəddin" və "Toxmaq" jurnalı" sərlövhəli məqaləsində realist Azərbaycan ədəbiyyatının türkmən ictimai fikrinə faydalı təsirindən bəhs edir.

Türkmənistanda din xadimlərinin və yerli hakimlərin özbaşınalığı, xalqın başına gətirdikləri müsibətlər, fanatizm, cəhalət və mürtəce adət-ənənələr "Molla Nəsrəddin" jurnalı səhifələrində ardıcıl şəkildə kəskin tənqid olunurdu. Bu jurnal türkmən klassik ədəbiyyatına, həyatına və məişətinə bələdliklə çıxış edir, yoxsulların mənafeyini gözləyir, ona görə də pərəstişkarlarının sayı get-gedə artırdı.

Türkmən satirik-yumoristik jurnalı "Toxmaq" "Molla Nəsrəddin"in təsiri altında da yaranmışdır. "Toxmaq"ın meydana gəlməsi ideyası haqqında türkmən ədəbiyyatının görkəmli xadimi Berdi Kerbabayev yazır: "... Məni bir məsələ düşündürürdü: nə üçün bizim belə bir jurnalımız yoxdur? Milli mətbuatımız inkişafa imkan tapan kimi "Molla Nəsrəddin"ə oxşar "Toxmaq" jurnalı çıxarmağa başladıq. "Molla Nəsrəddin" və "Hophopnamə" stolüstü kitabımız oldu. Biz onlara tez-tez müraciət edib, çox şey öyrənirdik. Bu cəhətdən istər "Molla Nəsrəddin", istərsə də "Hophopnamə" "Toxmaq" əməkdaşlarının ensiklopediyası idi. Türkmən ədəbiyyatında mənsur satira, felyeton və müxtəlif formada satira nümunələri bilavasitə "Molla Nəsrəddin" jurnalının təsiri altında yaranmışdır... Biz jurnalda məzmunlu karikaturalar vermək üçün də "Molla Nəsrəddin" jurnalının zəngin təcrübəsindən istifadə edirdik".

Bu faktın özü sübut edir ki, "Molla Nəsrəddin" jurnalı türkmən realist ədəbiyyatının inkişafına müəyyən təsir göstərmişdir.

Azərbaycanın demokratik mətbuatı və realist ədəbiyyatı tatar yazıçılarının məfkurəcə formalaşmasına daha faydalı təsir göstərmişdir. "Molla Nəsrəddin"in arabir tatar həyatına toxunması bu təsiri daha da artırırdı.

Görkəmli tatar ədəbiyyatşünası, professor M.Qaynullin yazır ki, "Molla Nəsrəddin" öz səhifələrində verdiyi felyeton və karikaturalarla Kazan, Orenburq, Həştərxan və Tomsk şəhərlərinin irticaçı tatar ruhaniləri və baylarının mütərəqqi mədəniyyətə qarşı düşmənçilik hərəkətlərini ifşa edirdi.

Klassik Azərbaycan ədəbiyyatı inqilabçı-demokrat yazıçı Q.Tukayın ideya mənbəyi olmuşdur. Q.Tukay "Molla Nəsrəddin" jurnalından satira sənətkarlığını, tənqid üsulunu öyrənmişdi. O bu faydalı təsir altında 1906-cı ilin ortalarında ilk satirik tatar jurnalı "Uklar"ı, sonralar isə "Yaşen", "Yalt-yult"u nəşr etdi. Bu jurnalların səhifələrində arabir "Molla Nəsrəddin"dən götürülmüş karikatura, felyeton və tənqidi məqalələr verilirdi.

C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında xalqlar dostluğu bayrağını uca tutmuş, azadlığa və xoşbəxtliyə nicat yolunu birlikdə, yekdillikdə görmüşdür. Əməkçi xalqların münasibətlərinə demokratik cəhətdən yanaşmaq "Molla Nəsrəddin"in şöhrətini daha da artırmışdı. Bu jurnal millətçi burjua-mülkədar mətbuatının tam əksinə olaraq xalqlar arasında qarşılıqlı etimad yaratmağı ən vacib məsələ sayırdı. "Çar mütləqiyyəti müxtəlif millətlərin mənafeyini bir-birinə qarşı qoyduğu, xalq kütlələrin şüurunu zəhərlədiyi bir dövrdə "Molla Nəsrəddin" jurnalı milli məsələyə dair təkcə həyati faktları şərh etməklə qalmır, millətçilik təbliğ edən "Füyuzat"dan tutmuş "Novoye vremya"ya qədər bütün burjua-mülkədar mətbuatı əleyhinə çəkinmədən, cəsarətlə mübarizə aparırdı".

C.Məmmədquluzadə Azərbaycan xalqının qabaqcıl ideyalı sənətkarlarını - M.Ə.Sabiri, Ə.Haqverdiyevi, M.S.Ordubadini, Ə.Nəzmini, Ə.Qəmküsarı və başqalarını jurnalın ətrafına toplamışdı. Bu yazıçılar köhnə həyatın mürtəce adət-ənənələrini, avamlığı, din xadimlərinin riyakarlığını tənqid edir, xalqın maariflənməsi uğrunda inadla mübarizə aparırdılar. Molla Nəsrəddinçilər təkcə Zaqafqaziyanın deyil, bütün Şərq ölkələrinin taleyi düşündürürdü. "Molla Nəsrəddin" jurnalı səhifələrində İran, Türkiyə, Çin ölkələrinin ictimai-siyasi, mədəni həyatından xəbər verən karikatura və bədii parçalar da bu cəhətdən səciyyəvidir. "Molla Nəsrəddin" dini mövhumat təsirindən ətalət və nadanlıq buxovları altında mürgü vuran bütün oxucularına dönə-dönə xatırladırdı ki, sözləri oxuyanda fikrə gedin.

"Molla Nəsrəddin" dövrün qabaqcıl adamlarını düşündürən, zəmanənin tələbi olan ən vacib məsələləri geniş xalq kütlələrinə çatdırmaq istəyirdi. O, istəyirdi ki, bütün Şərqin məzlum xalqları "... milli zülm, milli ədavət, milli etimadsızlıq siyasətinin mahiyyətini, inqilabi hərəkatın və rus xalqının qabaqcıl mədəniyyətinin təsiri nəticəsində sürətlə yayılmaqda olan yeni ictimai şüurun mənasını..." başa düşsünlər.

C.Məmmədquluzadə "Axund ilə keşişin vəzi", "Keçən günlər", "İrəvan seminariyası və qazının nitqi", "Erməni və müsəlman övrətləri", "Ot", "Səkkiz yüz molla", "Babilər" və sairə felyetonlarında öz həmvətənlərinə belə bir fikri aşılayır ki, həyat hadisələrinə ayıq gözlə bax, dostunu-düşmənini tanı, elm, maarif və mədəniyyət uğrunda çalış. C.Məmmədquluzadə felyetonlarında çar məmurlarını, din xadimlərini və fanatizmi bütün xalqların düşməni kimi səciyyələndirirdi.

Məlum olduğu kimi, çarizm Zaqafqaziyada zəhmətkeş kütlələri inqilabi mübarizədən yayındırmaq məqsədilə düzəltdiyi "erməni-müsəlman qırğını"nı doğrultmağa cəhd edir, belə bir uydurma nəzəriyyə irəli sürürdü ki, guya ixtilafa səbəb xalqlar arasında "milli düşmənçiliyin", "iqtisadi ziddiyyətin" olmasıdır. "Molla Nəsrəddin" jurnalı ilk nömrəsindən başlayaraq çarizmin qonşu xalqları qəsdən bir-birinə qarşı qoyan fitnəkar siyasəti əleyhinə ardıcıl mübarizə aparmışdır. Mollanəsrəddinçilər min illərlə sülh şəraitində yaşayan Zaqafqaziya xalqlarını ayıq olmağa, düşmən fitnəsinə uymamağa çağırırdılar. Akademik Mirzə İbrahimov "Böyük demokrat" əsərində yazır ki, "İrtica illərində, burjuaziyanın milli ədavəti təbliğ etdiyi zaman "Molla Nəsrəddin" millətlər arasında qardaşlıq ideyasına, beynəlmiləl bayrağına son günə qədər sadiq qalmışdır".

Cənubi Qafqaz xalqları "Molla Nəsrəddin"ə özlərinin havadarları kimi baxırdılar. Təsadüfi deyildir ki, çar fitnəkarları Tiflisdə erməni-müsəlman ixtilafı törətdikləri zaman ermənilər "Molla Nəsrəddin" jurnalının çap olunduğu "Qeyrət" mətbəəsinin əmlakını qoruyub saxlamışdılar. C.Məmmədquluzadə sonralar bu hadisəni xatırlayaraq yazırdı: "İntihasız təşəkkürlə yad edirəm haman iki nəfər erməni cavanlarını ki, erməni məhəlləsində bizə mühafiz oldular və mətbəəmizin özümüzə qaytarılması barəsində qərardad etdilər. Kim idilər onlar və hansı firqəyə qulluq edirdilər? Bizə məlum olmadı".

Məlum olduğu kimi, Rusiyada geniş xalq kütlələrinin inqilabi hərəkatı getdikcə güclənirdi. Bundan vahiməyə düşən çar mütləqiyyəti milli ədavət siyasəti yeritməklə inqilabi hərəkatı dayandırmağa, təməlindən çürüyən kapitalizmin ömrünü uzatmağa cəhd edirdi. Belə bir dövrdə Bakı fəhlələri çar hökumətinin əl atdığı həyasız fitnəkarlığa qarşı kütlələr arasında qızğın təbliğat aparır, əsrlik qapıbir qonşu olan xalqlarını yekdilliyə çağırırdı.

Bu ağır günlərdə "Molla Nəsrəddin" şeytanın fitnəkarlığına laqeyd ola bilməzdi. O hələ ilk nömrəsində hadisələrin mahiyyətini xalqa başa salmaq üçün eyhamla yazırdı: "Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi, hökumət əsgərləri elə şiddətli azara mübtəla oldular ki, təbiblər onların çölə çıxmağını rəva görmədilər".

C.Məmmədquluzadə əmin idi ki, bu sözlərin mənasını zəhmətkeş kütlələr yaxşı başa düşürlər. Bir il bundan əvvəl Şeytanbazarda fitnəkarlıq məqsədilə əhali arasında erməni-müsəlman davasının başlanacağı şayiəsini yayan polis nəfərləri haqqında ona şikayətlənən yoxsullar deyildimi?

C.Məmmədquluzadə çar hakimlərinin fitnəkar siyasətinə qarşı inadla mübarizə aparır, xalqı ayıq salmağa, fəlakətlərə yol verməməyə çalışırdı. "Vozrojdeniya" qəzeti 1905-ci il 29 noyabr tarixli 35-ci nömrəsində yazırdı ki, Tiflisdə erməni-müsəlman qırğınına son qoymaq məsələsi müzakirə edilmişdir. Mitinqdə bu məsələ ilə məşğul olan xüsusi komissiyaya C.Məmmədquluzadə və Ömər Faiq Nemanzadə üzv seçilmişlər.

"Molla Nəsrəddin" jurnalı ayrı-ayrı nömrələrində milli ədavət, etimadsızlıq yaradan "şeytanı", çar mütləqiyyətini ciddi şəkildə ifşa edirdi.

Azərbaycan xalqının M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmkusar, Ə.Nəzmi kimi bir çox qabaqcıl adamları "şeytan əməlini" aradan qaldırmaq üçün fədakarlıqla çalışırdılar. Onlar tez-tez çıxış edərək xalqları dostluğa, mehribanlığa və birliyə çağırırdılar. Görkəmli erməni yazıçısı H.Tumanyan 1905-ci il hadisələri zamanı milli ədavət əleyhinə apardığı təbliğat barəsində yazırdı: "Bu saat məni, bir-birinə qarşı silah qaldıran xalqları, qılınclarını qınlarına qoymağa inandırıb minlərlə günahsız insanı vəhşi qırğından xilas etməyim, ədəbiyyat üçün etdiyimdən artıq sevindirir".

Göründüyü kimi, bu vətəndaşlıq vəzifəsi ağır günlərdə xalqın qabaqcıl övladlarının idealına çevrilmişdi. Mollanəsrəddinçilərin yığcam, mənəvi bədii əsərlərinin ruhunda olan dostluq, qardaşlıq, insana hörmət ideyası bu cəhətdən çox qiymətlidir. Maraqlısı budur ki, "Molla Nəsrəddin" jurnalında xalqların maddi və mənəvi yaxınlığı barədə də mənalı, həyati karikatura və bədii parçalar verilmişdir ki, bu zəngin materiallar gözəl əsərlərin yaranmasına imkan vermişdir.

Qasım Qasımzadə öz tədqiqatında haqlı olaraq yazır ki, Cəfər Cabbarlı "1905-ci ildə" pyesini yazarkən "Molla Nəsrəddin"dən də istifadə etmişdir. C. Cabbarlı Azərbaycan sovet dramaturgiyasının gözəl, sənətkarlıq cəhətdən bitkin olan "1905-ci ildə" pyesində milli məsələ ideyasını realizm prinsipləri əsasında həll etmişdir. Lakin həyati faktları dərindən öyrənməkdə zəmanəsinin aynası olan "Molla Nəsrəddin"in C.Cabbarlıya zəngin material verməsi şübhəsizdir.

"Molla Nəsrəddin" jurnalında 1906-cı il 14-cü nömrəsində İrəvan quberniyasında bir kənd təsvir olunur. Bu kəndin camaatı yarı erməni, yarı müsəlmandır. Həyətlərdən birində bir "erməni arvadı toyuq-cücəyə dən səpir", o birində isə bir müsəlman arvadı "arxın kənarında qab yuyurdu".

Bu sətirlər istər-istəməz "1905-ci ildə" pyesində təsvir olunan Qarabağın Tuğ kəndini-qapıbir qonşu olan erməni Allahverdi ilə müsəlman İmamverdinin ailəsini xatırladır.

Cəfər Cabbarlı "1905-ci ildə" əsərini qələmə almamışdan iki qonşu xalqın həyatını dərindən öyrənməsi haqqında yazırdı: "Mən Gürcüstanda, Ermənistanda və Dağlıq Qarabağda olduğum zaman bir çox millətlərə rast gəldim. Bunlar sakitcə yaşayırdılar.

Bütün bu xalqların ev əşyası, kənd təsərrüfatı, alətləri, nəğmələri və rəqsləri bir-birinin eyni idi. Elə isə bəs bu xalqları uzun müddət qanlı vuruşmalara nə məcbur etmişdir? Bu məsələni dərindən öyrənməyə başladım".

Şübhəsiz ki, C.Cabbarlı 1905-ci il hadisələrini öyrənərkən "Molla Nəsrəddin" jurnalını bir daha nəzərdən keçirmiş, orada təsadüf etdiyi "Qafqazda hürriyyət", "1905-ci ildə Qafqaz iğtişaşında" və sairə karikaturalardan təsirlənmişdir.

Bakı, Təbriz, Tiflis şəhərləri kimi, İrəvan da "Molla Nəsrəddin" jurnalının diqqət mərkəzində olmuşdur. Bunu jurnal səhifələrində gedən materiallar da sübut edir. C.Məmmədquluzadə öz felyetonlarında çox zaman müsəlman aləmini ayrı-ayrı millətlərin ictimai həyatı ilə qarşılıqlı müqayisə edir.

Məlumdur ki, C.Məmmədquluzadə Tiflisdə olduğu müddətdə qabaqcıl, ictimaiyyət arasında görkəmli jurnalist, beynəlmiləlçi yazıçı kimi tanınmışdı. Demokratik istiqamətli "Xatabala" jurnalının redaktoru Qaregin Yeritsyan jurnalist Rza Əsgərovla müsahibəsi zamanı C.Məmmədquluzadəni doğma xalqına bütün varlığı hissi ilə bağlı olan vətənpərvər kimi səciyyələndirmişdir. Hazırda Leninqrad şəhərində yaşayan 90 yaşlı qocaman ictimai xadim Q.Yeritsyan C.Məmmədquluzadənin yubileyində iştirak etmək, mütəfəkkir ədibin ağır günlərdə fədakarlıqla mübarizə aparmasından danışmaq arzusunda olduğunu bildirmişdir. "Molla Nəsrəddin" jurnalının nəşrindən iki ay sonra ilk nömrəsi çıxan "Xatabala" (1906-1916-cı illər) jurnalı öz səhifələrində "Molla Nəsrəddin" jurnalının ağır, böhranlı günlərində dəfələrlə onun havadarı kimi çıxış etmiş, onun çətin, şərəfli, mübarizə yolunu alqışlamışdır. "Xatabala"nın oxucular arasında geniş şöhrət tapmasına səbəb bu idi ki, o da "Molla Nəsrəddin" kimi zəhmətkeş xalqların mənafeyini güdür, geriliyə, cəhalətə, dini xurafata qarşı amansız mübarizə aparır, beynəlmiləlçilik ideyalarını təbliğ edirdi.

Bütün bunlar Cənubi Qafqaz və Şərq xalqları arasında rəğbətlə qarşılanırdı, millətlərin münasibətlərində demokratik meyilləri, əlaqələri gücləndirirdi.

**Teymur ƏHMƏDOV.**

---

## Yüksəkkeyfiyyətli ali təhsil ocağı - "UNEC-100"



**2030-cu ilədək dövrü əhatə edən "UNEC-100" İnkişaf Strategiyasının məqsədlərindən biri yüksəkkeyfiyyətli ali təhsil ocağına çevrilməkdir.**

Strategiyaya əsasən, UNEC bu məqsədə nail olmaq üçün yüksək bal toplayaraq universiteti seçən abituriyentlərin sayını artırmağı, orta keçid balını 500-ə yüksəltməyi, tədris prosesini daim təkmilləşdirməyi, akademik heyətinin peşəkarlıq səviyyəsini və 40 yaşadək professor-müəllim heyətinin payını davamlı yüksəltməyi, təhsil proqramlarının beynəlxalq akkreditasiya olunmasını, tələbələrin təqaüd və yataqxana ilə təminolunma imkanlarını artırmağı, ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərməyi hədəfləyib.

Sənəddə hər bir hədəfə nail olmaq üçün strateji fəaliyyətlər əks olunub. Ölkədə orta təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin ilkin iqtisadi biliklərinin formalaşdırılmasına dəstək verilməsi, təhsil proqramları ilə bağlı tanıtım tədbirlərinin genişləndirilməsi, baza məktəblərinin sayınına artırılması UNEC-in strateji fəaliyyətləri kimi göstərilib.

2030-cu ilə qədər tədris prosesini təhsilalanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə daim təkmilləşdirməyi hədəfləyən UNEC bu istiqamətdə də əsas fəaliyyətlərini müəyyən edib. Belə ki, həmin dövrədək ixtisaslar, tədris standartları və planlarının dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması, müəllimin tələbə tərəfindən seçiminin təmin edilməsi, aktiv dərs yükünün və hər müəllimə düşən tələbə sayınının 1/16 nisbətinə qədər azaldılması nəzərdə tutulub.

Strategiyaya görə, ixtisas fənlərinin tədrisində effektivliyi təmin etmək, tədrisin informasiya təminatını yaxşılaşdırmaq, Azərbaycan dilində tədris resurslarını inkişaf etdirmək, 24/7 kitabxana şəbəkəsi qurmaq, mentorluq institutu formalaşdırmaq, tələbələrin İKT, akademik yazı və natiqlik bacarıqlarını inkişaf etdirmək, mübadilə proqramlarına daha çox müəllim və tələbə cəlb etmək, innovativ təlim metodlarından istifadəni genişləndirmək, tələbələrin təcrübəsinin təşkilini təkmilləşdirmək, "oriyentasiya günləri"nin səmərəliliyini artırmaq əsas fəaliyyət istiqamətləri kimi təsbit olunub.

UNEC 100 illik yubileyinədək ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərən Distant Təhsil Mərkəzi formalaşdıraraq, ümumi fənlərin distant tədrisini, eləcə də distant təhsil proqramlarını təklif etməyi də hədəf seçib.

---

## Avey qoruğundakı Damcılı mağara düşərgəsinə yeni yol çəkilir

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildən Qazax rayonundakı Avey Dövlət Tarix-Mədəniyyət Qoruğunun Damcılı filialında yaponiyalı və azərbaycanlı alimlərin iştirakı ilə beynəlxalq ekspedisiya fəaliyyət göstərir. Müvafiq memorandum Mədəniyyət Nazirliyi tərəfindən Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya tərəfindən Tokio Universiteti arasında bağlanıb.

Beynəlxalq ekspedisiyanın işlədiyi müddət ərzində mühüm nəticələr əldə edilib. Qobustandan sonra Damcılı mağara düşərgəsində Mezolit dövrü təbəqəsinin aşkar edilməsi, bu dövrə aid maddi-mədəniyyət nümunələrinin, qiymətli tapıntıların əldə edilməsi ərazinin ən qədim yaşayış düşərgəsi olmasını bir daha sübut edir.

Mədəniyyət naziri Əbülfəs Qarayev ötən il qoruq ərazisində aparılan arxeoloji işlərlə, qazıntılar zamanı əldə edilmiş tapıntılardan ibarət sərgi ilə tanış olarkən qoruğun gələcək fəaliyyətinin daha da gücləndirilməsi, araşdırmaların davam etdirilməsi istiqamətində tapşırıq və tövsiyələrini vermişdi.

Həmçinin burada mədəniyyət nazirinin, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun, yaponiyalı və azərbaycanlı mütəxəssislərin iştirakı ilə Damcılı qədim yaşayış düşərgəsinin gələcək perspektivləri, infrastrukturu və s. ilə bağlı fikir mübadiləsi aparılmış, o cümlədən ərazinin abadlaşdırılması, yeni yolun çəkilməsinin vacibliyi vurğulanmışdı. Bunun nəticəsi olaraq, Damcılıya gələn turistlərin yolunu abadlaşdırmaq üçün avtomobil meydançasının sahəsinə asfalt döşənmişdi. Nazirin iştirakı ilə keçirilən həmin görüşdə icra başçısı Bakı-Qazax-Tbilisi magistral yolunu Daş Salahlıya birləşdirən hissəsinin asfaltlanacağını bildirərək bu yolun daha 3 kilometr - dünya əhəmiyyətli abidə olan Damcılıya qədər uzadılmasını təklif etmişdi.

**Humanitar siyasət redaksiyası.**

---

## Ölkəmizə gələn turistlərin sayı ötən illə müqayisədə 5,7 faiz artmışdır

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2018-ci ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2849,6 min və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 30,9 faizi Rusiya Federasiyası, 21,4 faizi Gürcüstan, 10,2 faizi Türkiyə, 8,5 faizi İran, 3,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,6 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi İraq, 2 faizi Ukrayna, 1,4 faizi İsrail, 17,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Xarici vətəndaşların 66,1 faizini kişilər, 33,9 faizini isə qadınlar təşkil etmişdir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 6,5 faizi yanvar, 5,8 faizi fevral, 9,7 faizi mart, 7,7 faizi aprel, 7,3 faizi may, 9,5 faizi iyun, 11,6 faizi iyul, 11,3 faizi avqust, 8,1 faizi sentyabr, 7,4 faizi oktyabr, 7,5 faizi noyabr, 7,6 faizi isə dekabr ayında ölkəyə gəlmişdir.

2018-ci ildə Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. 2017-ci illə müqayisədə ölkəmizə gələn Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2 dəfə, Küveyt vətəndaşlarının sayı 1,8 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 7,9 faiz, Oman vətəndaşlarının sayı 7,4 faiz artmışdır. İrandan gələnlərin sayında 33,7 faiz, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 8,3 faiz azalma müşahidə olunmuşdur. Ümumilikdə, Körfəz ölkələrindən 554,1 min nəfər gəlmiş və ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərdən biri bu ölkələrin vətəndaşları olmuşdur.

2017-ci ilə nisbətən Hindistandan gələnlərin sayı 2,7 dəfə, İsraildən gələnlərin sayı 2,6 dəfə, Misir, Türkmənistan və Cənubi Koreyadan gələnlərin sayı 1,7 dəfə, Çindən gələnlərin sayı isə 1,5 dəfə artmışdır.

2018-ci ildə Avropa İttifaqına üzv ölkələrindən gələnlərin sayı 6,7 dəfə artaraq 112,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,8 dəfə artaraq 1044,2 min nəfər olmuşdur.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 97,5 faizi dəmir yolu və avtomobil, 41,5 faizi hava, 1 faizi isə su nəqliyyatından istifadə etmişdir.

Ötən il xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı əvvəlki illə müqayisədə 19,5 faiz artaraq 4907,1 min nəfər olmuşdur. Ölkə vətəndaşlarının 33,6 faizi İrana, 29,2 faizi Gürcüstana, 18,9 faizi Rusiya Federasiyasına, 12,3 faizi Türkiyəyə, 1,4 faizi Ukraynaya, 0,9 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,7 faizi isə digər ölkələrə səfər etmişdir. Səfər edənlərin 65,3 faizi kişilər, 34,7 faizi isə qadınlardır.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 71,8 faiz, Gürcüstana gedənlərin sayı 4,2 faiz, Türkiyəyə gedənlərin sayı 0,9 faiz, Rusiyaya gedənlərin sayı 0,3 faiz artmışdır.

2018-ci ildə xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 81,4 faizi dəmir yolu və avtomobil, 17,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə etmişdir.

**"Respublika".**

---

## Gənclər əsgəri xidmətə coşqu ilə yollanır

**Həmişə olduğu kimi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami Rayon İdarəsinin həyətində təntənə, bayram əhval-ruhiyyəsi duyulur, əllərində tər gül-çiçək dəstələri tutmuş müharibə, əmək veteranları, valideynlər əsgəri xidmətə yola düşən gənclərlə xatirə şəkilləri çəkdirir, sabahın əsgərlərinə tövsiyə olunurdu ki, onlar Vətənin ərazi bütövlüyünü ləyaqətlə qorusunlar, hər an torpaqlarımızı yağı düşməndən azad etməyə hazır olsunlar. Onların hər biri Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməli, ölkəni sevməli, qüdrətli Azərbaycan ordusunda xidmət etməkdən qürur duymalıdırlar.**

İdarənin foyesində səliqə ilə hazırlanmış plakat və şüarlar diqqəti cəlb edir. Şübhəsiz ki, bu da gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin güclənməsində, Silahlı Qüvvələrə hazırlanmasında da müstəsna rol oynayır.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində idarənin rəisi, polkovnik-leytenant Kənan Məmmədov ilk öncə tədbirə qatılan insanları salamladı. Qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı böldü:

—Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir. Bu gün bizim güclü ordumuz vardır. Bu gün əsgəri xidmətə yola düşən vətənpərvər oğullarımız orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir.

Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər, hər an qələbəyə nail olunar.

Bizim ordumuz möhkəmlənir. Möhkəmlənməlidir ki, Azərbaycan ölkəsinin özünə layiq qüdrətli ordusu olsun. Möhkəmlənməlidir ki, Azərbaycan ordusu bu gün də, gələcəkdə də ölkəmizə qarşı mühüm olan təcavüzün qarşısını alsın. Bütün bunlara görə Azərbaycan gəncliyinin qarşısında duran ən birinci, ən ümdə vəzifə ordu ilə əlaqəni möhkəmləndirmək, orduda xidmət etmək, orduya diqqət, qayğı yetirmək, ordunun nüfuzunu qaldırmaqdır. Orduda, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, mötəbər adamı olmalıdır.

Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir, işğal edilmiş torpaqlar azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycan ordusudur, Azərbaycan əsgərləridir. Siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğu ilə bağlı demişdir: **"Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir. Əlbəttə, heç kəs üçün sirr deyil ki, güclü ordu, ancaq iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olur. Bizim də istəyimiz məhz Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirmək, iqtisadi islahatları davam etdirmək və beləliklə,**



**həm ölkəmizi inkişaf etdirmək, həm də ordumuzu daha yüksək səviyyəyə gətirib çıxarmaqdır".**

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində Vüsalə ananın valideynlər adından çıxışı hamının diqqətini cəlb etdi. O, ürək sözlərini ifadə edərək dedi: Bir ana kimi bu gün sevincim köksümə sığmır. Böyüdüb ərsəyə çatdırdığım iki dağ vüqarlı oğlumu -Ümid və Bahadırı ordu sıralarına yola salıram. Həyat yoldaşım Vüqar bir neçə il öncə dünyasını dəyişib. İndi balalarımın həm atası, həm də anasıyam. Hər birinizə qüdrətli Azərbaycan ordusunda nümunəvi xidmət, cəsurluq, mübarizlik diləyirəm. Əminəm ki, yeri gəlsə, siz torpaqlarımızı işğal altında saxlayan mənfur ermənilərin başına misri qılıncı endirməyi bacaracaqsınız. Qəlbimdən keçən bu misraları hər biriniz qulaqlarınızda sırğa edin:

*Biz halal yemişik duzu, çörəyi,*
*Tanrı yerdə qoymaz haqqı, əməyi,*
*Bayrağa döndərib qanlı köynəyi*
*Şuşa qalasına taxmaq vaxtıdır!*

Budur, meydan yenidən musiqiyə verilir. Üçrəngli Azərbaycan bayrağı əzəmətlə dalğalandırılır. Gənclərdən Elvin Hacıyev, Səlim Quliyev, Nicat Əhmədli və başqaları marş sədaları altında ordu sıralarına yollanırlar.

**Qədir ASLAN,**
**"Respublika".**

# Tariximizin daş yaddaşı – Qobustan



**Azərbaycanın qədim tarixini özündə yaşadan, xalqımızın daş yaddaşı olan Qobustan paytaxtdan 65 kilometr aralıda yerləşir. Üst paleolit və mezolit dövrünün ilk ovçu qəbilələrinin, neolit dövrünün ilk maldarlarının məskənlərini özündə əks etdirən Qobustan eyni zamanda dünya miqyaslı tarixi abidədir. Əcdadlarımızın həyat tərzini, məişətini, məşğuliyyətini, mədəniyyətini, incəsənətini köksündə yaşadan bu tarixi abidə 1966-cı ildə Qobustan Dövlət Tarix Bədii Qoruğu elan edilmişdir.**

İstər arxeoloji abidələr, istərsə də yazılı mənbələr xalqımızın siyasi və iqtisadi, hərbi və mədəni, etnik və dini tarixinin aynasıdır. Bu aynadan xalqımızın yaşayış tərzini, mədəniyyətini, incəsənətini, musiqisini özündə əks etdirən sükuta dalmış daş kitabəmiz, tariximizin daş yaddaşı — Qobustana boylandıq. Bu nəhəng daşların yaddaşında canlı tariximizi yaşadan Qobustan Milli Tarix - Bədii Qoruğunun direktoru Vüqar İsayevin fikirlərini öyrəndik.

Qayaüstü rəsmlərin, mədəni landşaftın qorunması, tədqiqi və təbliği məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 503 nömrəli 09 sentyabr 1966-cı il tarixli Qərarı ilə Qobustan Dövlət tarix-bədii qoruğu yaradılmışdır.

Qobustan qoruğundakı milli sərvətlər xəzinəsinin qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında” 11 iyun 2007-ci il tarixli 2213 nömrəli Sərəncam imzalayıb. Sərəncamdan irəli gələrək Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 noyabr 2007-ci il tarixli Qərarı ilə qoruğa Milli Qoruq statusu verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəxsi səyi nəticəsində 29 iyun 2007-ci il tarixində Yeni Zelandiyanın Kristcorc şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin XXXI Sessiyasında Qobustanın qayaüstü təsvirləri, mədəni landşaftı ilə birlikdə YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilib və 2013-cü ildə Qobustan qoruğuna YUNESKO tərəfindən Dünya Mədəni İrs Siyahısında olan çox az sayda tarixi ərazilərə şamil edilmiş “gücləndirilmiş mühafizə” statusu verilib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı əsasında Qobustan Milli qoruğunun ərazisində aparılan genişmiqyaslı yenidənqurma və abadlıq işləri nəticəsində yeni inzibati və muzey binası tikilərək istifadəyə verilib. 2011-ci ilin dekabr ayının 26-da cənab Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva muzey binasının acılışında iştirak ediblər.

2013-cü ildə Belçikanın Tongeren şəhərində Avropa Muzeylər Forumunun illik toplantısında “Avropanın ən yaxşı muzeyi” nominasiyasına təqdim olunmuş müxtəlif ölkələrin 51 muzeyi arasında Qobustan Milli tarix-bədii qoruğunun muzeyi “European Museum of the Year Award” mükafatına layiq görülən 8 muzeydən biri olub.

2015-ci ildə Qobustan Milli tarix-bədii qoruğu Avropa Şurası yanında Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən sertifikatlaşdırılmış



“Prehistoric Rock Art Trails” (Qədim qayaüstü incəsənət izləri) mədəni marşrutuna (PRAT-CARP) daxil edilib.

**Qoruq əsasən üç dağın - Böyükdaş, Kiçikdaş və Cingirdağın yerləşdiyi böyük bir ərazini əhatə edir. Açıq səma altında olan muzeydə qayaüstü rəsmlər, təsvirlər, Qavaldaş kimi tarixi abidələrimiz qorunur. Ümumiyyətlə, Qobustan Milli tarix-bədii qoruğunun Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şonqar və Şıxqaya dağları ərazilərində 1031 qaya üzərində çəkilmiş 6300-dən çox rəsm qeydiyyatdadır.** Hazırda Qobustan ərazisində 20 mağara və yaşayış yeri, tunc və sonrakı dövrlərə aid 40 kurqanda tədqiqat işləri aparılıb və öyrənilib. Nəticə olaraq, 1031 qaya üzərində çəkilmiş 6300-dən çox qayaüstü təsvir və 105 000 ədəd arxeoloji material qoruğun fonduna daxil edilib.

Tədqiqatçıların fikrinə görə, Qobustanın ən qədim düşərgələri hesab olunan “Qayaarası” və “Ana Zağa” mağaralarında yaşayış təxminən 18-20 min il əvvəl, yəni Üst Paleolit Dövründə başlamışdır. Sonrakı dövrdə, Mezolit Dövründə Qobustanda insanların yaşayış arealı genişlənmişdir. Bu dövrdə “Qayaarası” və “Ana Zağa” ilə yanaşı “Kənizə”, “Ovçular”, “Öküzlər”, “Ceyranlar”, “Firuz-1” və “Firuz-2” düşərgələrində də yaşayış olmuşdur. Arxeoloji tədqiqatların nəticələri onu deməyə əsas verir ki, Neolit Dövründə, çox güman ki, təbii-geoloji hadisələrlə bağlı olaraq yaşayış nisbətən səngimiş, ancaq yuxarıda sadalanan düşərgələrin bəziləri yenə də insanlar tərəfindən istifadə edilmişdir.

E.ə IV minillikdən başlayaraq Qobustanda həyat yenidən canlanmış və “Ana Zağa”, “Firuz”, “Öküzlər” kimi Daş Dövrü düşərgələri ilə yanaşı, yeni “Dairə”, “Böyükdaş” kimi möhkəmləndirilmiş Tunc Dövrü yaşayış yerləri yaranmışdır. Tunc Dövründən başlayaraq Qafqazın bir çox bölgələrində olduğu kimi, Qobustanda da yaylaq-qışlaq maldarlığının əsas təsərrüfat sahəsinə çevrilməsi ilə yeni tipli yaşayış məskənləri - qışlaqlar yaranmışdır. Antik Dövr və Orta Əsrlər ərzində də qışlaqlar Qobustanın əsas yaşayış məskənləri olmuşdur.

Qobustan qayaüstü təsvirləri ilk dəfə 1939-cu ildə görkəmli Azərbaycan arxeoloqu İsfaq Cəfərzadə tərəfindən Cingirdağ və Yazılıtəpədə, 1940-cı ildə isə Böyükdaş və Kiçikdaş dağları ərazisində aşkar edilmişdir. Qobustan qayaüstü təsvirlərinin sistematik tədqiqi 1947-ci ildən aparılır. Təxminən 1000 qaya üzərində insanların, heyvanların kontur və siluet təsvirləri, müxtəlif işarə və yazılar aşkar edilmişdir. Hazırda aşkar olunmuş rəsmlərin sayı 6300-dən artıqdır. Bunların tarixi Üst Paleolitdən orta əsrlərədək olan dövrü əhatə edir.

Qobustan qayaüstü təsvirləri mövzu müxtəlifliyi, süjet orijinallığı və müəyyən bədii ustalığı ilə seçilir.

Qayalarda kişi və qadın, vəhşi öküz, keçi, maral, şir, vəhşi ceyran, at, it, canavar, qaban təsvirlərinə rast gəlmək olar. Həmçinin, atlı və piyada ov səhnələri, döyüş səhnələri, kollektiv əmək səhnələri, qurban kəsmə səhnələri qeydə alınmışdır. Azərbaycan xalq rəqsi olan “Yallı”nı xatırladan tək və qrup halında mərasim rəqslərinə təsadüf olunur. Bir çox rəsmlərdə içərisində sxematik çəkilmiş insanlar olan qayıq təsvir olunmuşdur. Primitiv ikiçarxlı araba, balıq, dəvə karvanı, insan pəncəsinin izlərinin siluet təsvirləri qeyd olunmuşdur. İlan, kərtənkələ, günəş, ulduz, svastika, xaç rəsmləri və bir çox digər işarə və damğalar qeydiyyata alınmışdır.

Bundan əlavə, Qobustan qoruğu ərazisində Azərbaycanın orta əsrlər tarixinin müxtəlif dövrlərinə aid olan ərəb əlifbası ilə həkk olunmuş yazılar və I əsrin sonunda XII İldırımsürətli Roma legionunun burada olmasını təsdiq edən qədim latın yazısı vardır.

Arxiv sənədləri arasında 1964-cü ilə aid 2 ədəd kinolent də aşkar olunmuşdur. Kinolentlər Mədəniyyət Nazirliyinin “Azərbaycanfilm” kinostudiyasının dəstəyi ilə bərpa olunmuş və rəqəmsal formata çevrilmişdir.

Qobustan qoruğu Mədəniyyət naziri tərəfindən təsdiq olunmuş əsasnaməyə uyğun olaraq öz fəaliyyətini üç istiqamətdə qurur. Qoruğun fəaliyyət istiqamətlərini abidələrin qorunması, öyrənilməsi və tanıdılması təşkil edir. Eyni zamanda, fəaliyyətimizin əsas istiqaməti qoruq ərazisində qeydə alınmış abidələrin qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılmasını təmin etməkdir. Bunun üçün qoruq ərazisində 7 gün 24 saat fəaliyyət göstərən mühafizə postları qurulmuşdur. Bundan başqa, qoruğun ziyarətçilərə açıq olduğu müddətdə abidə mühafizəçiləri birbaşa təhkim olunduğu abidənin toxunulmazlığını təmin edir. Abidələrin mühafizəsi dedikdə, fiziki olaraq onların qorunması ilə yanaşı, bu istiqamətdə maarifləndirmə, təbliğat işlərinin düzgün qurulması da nəzərdə tutulur. Bu istiqamətdə mütəmadi olaraq qoruqla sərhəd bölgələrdə yerləşən yaşayış məntəqələrinin sakinləri , həmçinin qoruğa turist gətirən bələdçilər arasında maarifləndirmə işləri aparır, əməkdaşlarımız məktəblərdə təqdimatlarla çıxış edirlər.

Bu yaxınlarda qoruğun “Qoruyaq, öyrənək, tanıdaq” sloqanı ilə videoçarxı hazırlanaraq, sosial şəbəkələr və televiziya kanalları vasitəsilə yayımlanır.

Qoruq ərazisindəki tək arxeoloji abidələr deyil, onun təbii landşaftı da qorunur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “IDEA” İctimai Birliyi ilə birlikdə qoruğun qədim fauna və florasının bərpa olunması istiqamətində layihələr hazırlanmışdır. Belə ki, qoruq ərazisində landşafta uyğun ağacların əkilməsi və vaxtilə Qobustanda yaşamış ceyran və bezoar keçilərinin populyasiyasının bərpa edilməsi nəzərdə tutulmuşdur. Bundan başqa, “Azərbaycan 2020:Gələcəyə baxış” inkişaf konsepsiyasının 10. bəndində, “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın 1.2. bəndində, “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın 3.2. bəndində nəzərdə tutulmuş muzey fondlarının və arxeoloji abidələrin elektron məlumat bazasının yaradılması müddəasını nəzərə alaraq Qobustan Milli Tarix Bədii qoruğunun fondlarında saxlanılan maddi mədəniyyət abidələrinin (qayaüstü təsvirlər, arxeoloji materiallar, qədim yaşayış və dəfn abidələri və s.) müasir tələblərə cavab verən rəqəmsal məlumat bazasının yaradılması layihəsinə başlanılmışdır.

3 istiqamətdə həyata keçiriləcək layihədə qayaüstü təsvirlərin sənədləşdirilməsi və rəqəmsallaşdırılması, fond materiallarının sistemləşdirilməsi və rəqəmsallaşdırılması, yazılı məlumatların (çöl kitabları, arxeoloji hesabatlar və s.) rəqəmsallaşdırılması nəzərdə tutulur.

Qoruq daim öz işini yüksək beynəlxalq standartları əsas tutaraq qurur. Həmçinin, elmi tədqiqatların aparılmasında da ən müasir metodlardan istifadə olunur.

Ötən il 2016-cı ildən icrasına başlanılmış “Qayaüstü təsvirlərin rəqəmsal məlumat bazasının yaradılması” layihəsi çərçivəsində çöl-tədqiqat işləri davam etdirilmişdir. Layihənin məqsədi Qobustan qayaüstü təsvirlərinin rəqəmsal məlumat bazasının və yeni kataloqunun yaradılması üçün qoruq ərazisindəki təsvirli daşların yenidən sənədləşdirilməsidir. Tədqiqatın nəticələrinə görə, əvvəllər 877 təsvirin qeydə alındığı Cingirdağ-Yazılıtəpə ərazisində 521 yeni təsvir aşkar olunmuşdur. Yeni aşkar olunmuş təsvirlər əsasən Yazılıtəpə üçün xarakterik olan keçi, maral, şir təsvirləri və müxtəlif



abstrakt işarələr, damğalar, araba təsvirləridir. Yeni aşkar olunmuş təsvirlər və ümumiyyətlə, Cingirdağ-Yazılıtəpə sahəsinin qayaüstü təsvirləri haqqında müfəssəl məlumat hazırlanmaqda olan kataloqda öz əksini tapacaqdır. Hazırda Cingirdağ sahəsinin bütünlükdə köhnə və yeni aşkar olunmuş 1300-dən çox abidəsinin əks olunduğu kataloq çap mərhələsindədir.

Həmçinin, ötən il tamamilə yeni bir abidə kompleksi aşkar edilmişdir. Sona qaya adlanan bu yeni ərazidə 30 qayada 100-dən artıq qayaüstü təsvir qeydə alınmışdır. Bütün bu yeni təsvirlərin aşkar olunması müasir 3D fotoqrammetriya metodunun tətbiqi vasitəsilə mümkün olmuşdur. Onu da qeyd edim ki, qoruq ərazisindəki abidələrin təxminən 15 faizi bu yeni metodologiya vasitəsilə sənədləşdirilmişdir. Bu nəticələr bizi Qobustanda gələcəkdə daha böyük tapıntıların gözlədiyindən xəbər verir.

Beynəlxalq təşkilatlarla və elm mərkəzləri ilə əməkdaşlıq nəticəsində Qobustan haqqında məlumatlar bütün dünyaya çatdırılır. Bu yaxınlarda bildiyiniz kimi, Qobustanda aşkar olunmuş Tunc Dövrü oyun təsviri haqqında Amerikanın milyonlarla izləyicisi olan science-news.org və livescience.com elmi portalları, həmçinin onlara istinad edərək yüzlərlə mətbuat orqanları xəbər hazırladı.

CNN travel səyahət portalında Qobustan haqqında videoçarxın təqdim olunması da böyük rezonansa səbəb oldu. Bütün bunlar Qobustanın dünyada daha da tanınmasına və ziyarətçilərin artmasına səbəb olur.

Həmçinin, ötən il ərzində qoruğa gələn ziyarətçilərə göstərilən xidmətin keyfiyyətinin daha da artırılması məqsədilə bir çox abadlıq işləri görülmüşdür. Belə ki, qoruqdaxili asfalt yollar təmir edilmiş və qoruğa gələn yolda qoruğun adı və istiqaməti yazılmış 3 yeni istiqamətləndirici yol nişanı quraşdırılmışdır. Muzey binası tam təmir edilmiş, Böyükdaş dağında yerləşən iaşə obyekti tamamilə yenidən qurulmuşdur.

Bu gün demək olar ki, Azərbaycana gələn hər bir qonaq, hər bir turist Qobustanı ziyarət edir. Qobustanla tanışlıq onlarda Azərbaycan və azərbaycanlıların keçmişi haqqında fikir formalaşdırır. Qobustanın keçmişi, onun abidələri bizim tarixi keçmişimizi əks etdirirsə, onun öyrənilməsi, qorunması, təqdim olunma səviyyəsi qonaqlara bu günümüz haqqında məlumat verir. Ona görə də biz öz işimizi görərkən bəşəriyyətin ən unikal abidələrindən birinin qorunmasına cavabdeh olduğumuzu və öz dövlətimizi, xalqımızı təmsil etdiyimizi həmişə xatırlamalıyıq. Onu deyə bilərəm ki, ixtisasından, maraq dairəsindən asılı olmayaraq, bütün qonaqlar Qobustanı müsbət emosiyalarla tərk edirlər.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**

# Əkinçi dövlət qayğısına əməli işlə cavab verir

**Dövlətimiz kənd təsərrüfatının inkişafına daim dəstək verir. Onu stimullaşdırır. Məhsul istehsalçılarına subsidiyalar verir, texnikanın, yanacağın, gübrənin alınmasında, habelə, kreditlərin verilməsində güzəştlər tətbiq edir. Kəndli torpaq vergisindən başqa bütün vergilərdən azad olunub. Bir sözlə, torpaqda çalışan hər bir kəsə dövlətin xüsusi qayğısı və diqqəti var.**

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev demişdir: “Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir”.

Bəli, kənd təsərrüfatında çalışan hər kəs bu qayğını hər zaman hiss edir. Xaçmazlı fermerlər, kiçik sahibkarlar, ailə təsərrüfatı başçıları da bu qayğıdan bəhrələnir, məhsul istehsalını ildən-ilə artırırlar. Dövlətin güzəştli şərtlərindən bəhrələnən torpaq adamlarından biri də Bəbəli kəndində çalışan **Laçın Cəbrayılovdur.** Uzun illər taxılçılıqla məşğul olan təcrübəli təsərrüfatçı deyir: “Ailəmizin sərəncamında 25 hektar torpaq sahəsi var. Əsasən taxıl əkib-becəririk. Hər il ailəmin mülkiyyətində olan torpaqlarla bərabər, 300-400 hektar sahəni icarəyə alıb taxıl əkirəm. İşə başladığım ilk vaxtlardan texnika sarıdan çox çətinlik çəkirdim. Biçin vaxtı kombayn tapa bilmədiyimdən itki çox olurdu. Lazımi qədər məhsul götürə bilmirdim. Məhsuldarlıq 15 sentnerdən çox olmurdu. Texnika almaq üçün “Aqrolizinq” xidmətinə müraciət etdim. Dövlətin güzəştlərindən istifadə edib hər il bir texnika aldım. İndi kiçik təsərrüfatımda 18 adda müxtəlif kənd təsərrüfatı maşınları, şum traktoru, taxıl-biçən kombayn, taxılsəpən, kotan, mala, otbağlayan və sairə aqreqatlar vardır. Bu texnikanın əksəriyyətini lizinq yolu ilə almışam. Təkcə ötən il lizinq yolu ilə “Sampo” markalı taxılyığan kombayn, “MTZ-86” markalı şum traktoru və 1 ədəd taxılsəpən aqreqat almışam. Gübrələrdən və yanacaqdan da güzəştli qaydada istifadə edirəm. Bütün bunların nəticəsidir ki, son illər taxılın məhsuldarlığını 35-40 sentnerə çatdırmışam. Lakin bu rəqəm də məni qane etmir. Bu il 300 hektarda əkdiyim taxıl sahələrinə daha yaxşı qulluq göstərməklə yüksək məhsul götürmək üçün çalışıram. Yeri gəlmişkən, deyim ki, taxıl sahələrinin suvarılmasında bir qədər çətinlik çəkirik. Kəndlərimizə yeni suvarma kanalları çəkilsə, məhsuldarlığı daha da artıra bilərik. Suvarma suyu ilə təminatımız yaxşılaşarsa, mülkiyyətimdə olan torpağın bir hissəsində fındıq və gilas bağları salmaq fikrindəyəm.

Qeyd etmək istəyirəm ki, biz təsərrüfatçılar hər işdə dövlətin dəstəyini hiss edirik. Hörmətli Prezidentimiz İlham Əliyev kənd təsərrüfatında işləyənlərə xüsusi qayğı göstərir. Bu yaxınlarda televiziyada onun çıxışını dinlədim. O, kənd təsərrüfatına bundan sonra da xüsusi diqqət göstəriləcəyini bildirdi. Fürsətdən istifadə edib kəndimizdə çalışan bütün torpaq adamları adından möhtərəm Prezidentimizə öz dərin minnətdarlığımı bildirirəm. Çalışacağam ki, dövlət qayğısına əməli işimlə cavab verim. Ölkəmizdə ərzaq bolluğunun yaradılmasında yaxından iştirak edim”.

Dövlətin qayğısından daha da ruhlanan Xaçmaz rayonunun kənd əməkçilərinin, demək olar ki, hamısı bu amalla çalışırlar.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**

# Gəncə Avtomobil Zavodu və “Belkommunmaş”ın birgə istehsal imkanları



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarusda işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Belarusun Baş nazirinin müavini Mixail Rusıy ilə görüş baş tutub. Görüşdə Azərbaycan-Belarus əlaqələrindən söz açılıb, Gəncə Avtomobil Zavodu ilə “Belkommunmaş”ın əməkdaşlıq imkanları müzakirə olunub. Belarusun Baş nazirinin müavini Mixail Rusıy həm Gəncə, həm də Azərbaycanla qurulan əlaqələrin böyük perspektivlərə malik olduğunu qeyd edib. O bildirib ki, Gəncə bir sıra investisiya layihələrinin həyata keçirilməsi üçün unikal bir regiondur. “Gəncə Avtomobil Zavodunun bazasında elektrik avtobuslarının birgə istehsalı üçün yeni texnologiyaların öyrənilməsi istiqamətində ciddi iş aparılır. Biz mövcud imkanları və perspektivləri müzakirə etdik. İstəyirik ki, əməkdaşlığımız möhkəm və davamlı olsun” - deyə, Mixail Rusıy qeyd edib.

Azərbaycan və Belarus, həmçinin Türkiyədə traktor istehsalı üzərində çalışır. “Gəncə Avtomobil Zavodunun bazası əsasında Türkiyə ilə işləyəcəyik. Hesab edirəm ki, artıq aprel ayında ilk nəticələri dəyərləndirə biləcəyik. Bu, üç dövlət arasındakı əməkdaşlıq əlaqələrinin yeni müstəviyə çıxdığını göstərən çox ciddi və iddialı bir layihədir”, - deyə, Mixail Rusıy əlavə edib. Həmçinin o, Azərbaycan tərəfinə süd məhsullarının birgə istehsal imkanlarının gözdən keçirilməsini təklif edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qeyd edib ki, Gəncə Avtomobil Zavodu sənaye sahəsində Azərbaycan-Belarus əməkdaşlığının flaqmanıdır. 10 ildən artıqdır ki, bu zavod traktor, avtomobil, kommunal texnika və xüsusi texnikanın yığılması əməliyyatlarının həyata keçirilməsində Belarusun texnika istehsalı üzrə aparıcı müəssisələri ilə fəal əməkdaşlıq edir. Niyazi Bayramov digər istiqamətlərdə də əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğunu dilə gətirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti “Belkommunmaş” zavoduna baş çəkmiş, istehsal prosesi ilə yaxından tanış olmuşdur.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# ŞABRANDA EPİZOOTİYA ƏLEYHİNƏ PROFİLAKTİK TƏDBİRLƏR

**Ölkə ərazisində epizootik sabitliyin təmin edilməsi və zoonoz xəstəliklərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə 2019-cu ilin ilk günlərindən başlayaraq Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) yerlərdə “Epizootiya əleyhinə profilaktika, diaqnostika tədbirlər planı”na uyğun iti yoluxucu xəstəliklərə qarşı profilaktiki peyvəndləmə, diaqnostik müayinə, dehelmentizasiya, dezinfeksiya, dezinseksiya və digər tədbirlər aparır.**

69 kəndi, 1 şəhəri əhatə edən Şabran rayonunda epizootik durum sabitdir. Buna baxmayaraq, heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı 2019-cu ilin profilaktik tədbirlərinə başlanılıb. 24200 baş iribuynuzlu, 52 min baş xırdabuynuzlu, 1400 baş təkdırnaqlı, 2700 baş it saxlanılan rayonda müayinə və profilaktik tədbirlər həm fərdi, həm də fermer təsərrüfatlarında aparılır. Dövlət Baytarlıq Xidmətinin Şabran Rayon Baytarlıq İdarəsinə verilən peyvənd vasitələri “soyuq zəncir” rejimi gözlənilməklə 11 sahə baytarlıq məntəqələrinə termoçamadanlarla çatdırılır və heyvanlara tətbiq edilir. İlin əvvəlindən başlanan bu tədbirlər iribuynuzlu, təkdırnaqlı və donuzlar arasında qarayara xəstəliyinə qarşı aparılır.

Qeyd edək ki, Şabran Rayon Baytarlıq İdarəsinin mütəxəssisləri tərəfindən 2018-ci il ərzində həssas heyvanlar arasında brusellyoz xəstəliyini aşkar etmək, xəstəliyin qarşısını almaq məqsədi ilə 5615 baş iribuynuzlu və 1030 baş xırdabuynuzlu heyvanlardan (qoçlardan) qan nümunələri alınaraq müayinə edilib. Eləcə də ötən il 25088 baş iribuynuzlu, 49317 baş xırdabuynuzlu, 590 baş cavan iribuynuzlu, 11446 baş təkdırnaqlı heyvanlarda qarayara və 2451 baş qapı itlərində quduzluq xəstəliyinə qarşı peyvəndləmə tədbiri aparılıb. Həmçinin, başa vurduğumuz il ərzində rayonda 49121 kvadratmetr sahədə profilaktik dezinfeksiya tədbirləri icra olunub.

Hazırda xüsusi təhlükəli xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir və bu sabitliyi qoruyub saxlamaq üçün Dövlət Baytarlıq Xidməti lazımi təşkilati tədbirləri davam etdirir.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# Əsas kapitala 172 38,2 milyon manat həcmində vəsait yönəldilib

**2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17238,2 milyon manat və ya əvvəlki illə müqayisədə 4,4 faiz az vəsait yönəldilmiş, sərf edilmiş vəsaitin 68 faizi bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir. Bu azalma neft sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olmuş, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 22 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 23 faiz artmışdır. Ümumi sərmayənin 67,6 faizi məhsul istehsal sahələrinin, 24,8 faizi xidmət sahələrinin, 7,6 faizi isə ümumi sahəsi 2084,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür.**

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69, 7 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52,7 faiz, bank kreditləri 11 faiz, büdcə vəsaitləri 25,8 faiz, əhalinin şəxsi vəsaitləri 8,2 faiz, büdcədənkənar fondların vəsaitləri 1,6 faiz, sair vəsaitlər isə 0,7 faiz təşkil etmişdir.

Ötən ildə mühüm əhəmiyyətli obyektlərdən Naxçıvan MR-də Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Bakı şəhərində Yüksəkgərginlikli avadanlıqlar zavodu , 110/35/10 kilovoltluq “Yasamal-1” və “Qobu”, 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, DİN-in Polis Akademiyasında tədris binası, Binəqədi Rayon Məhkəməsinin inzibati binası, Bakı Kitab Mərkəzi, Neftçala rayonunda “Xəzər” Avtomobil zavodu, Quba rayonunda meyvə emalı zavodu və s. obyektlər istifadəyə verilmişdir.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**

# LERİKDƏ KƏNDLƏRİN İNKİŞAFI DİQQƏT MƏRKƏZİNDƏDİR



**Yola saldığımız 2018-ci il ölkəmiz üçün yeni uğurlarla yadda qalıb. Bütün sahələrdə dinamik inkişaf, yüksəliş təmin edilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə aparılan iqtisadi islahatlar regionlarda da uğurlu nəticələr verir. Bunu ucqar dağ rayonu olan Lerikin timsalında aydın görmək olur.**

Cənab Prezident keçən il oktyabr ayının 15-də Lerikə növbəti səfəri zamanı görülmüş işlərlə yaxından tanış olaraq demişdir: **"Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir".**

Cənab Prezidentin çətin dağlıq şəraitdə yaşayan zəhmətkeş insanların əməyini yüksək qiymətləndirməsi hamını sevindirmiş, ürəklərdə minnətdarlıq duyğuları yaratmışdır. Yanvar ayının 11-də keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin proqram xarakterli nitqi rayonun kəndlərində, əmək kollektivlərində öyrənilir və bütün qüvvələr yeni vəzifələrin icrasına səfərbər edilir.

Bu günlərdə yolumuz rayonun ucqar kəndlərinin birinə - Nücüyə düşmüşdü. Rayon mərkəzindən 30 kilometr uzaqda yerləşən kənd uca dağlar, meşələrlə əhatə olunub. Burada qışın nəfəsi aydın duyulur. Hər tərəf ağ örpəyə bürünüb.

Son illər kənddə müasir üslubda ikimərtəbəli məktəb binası, mişar daşından, qırmızı kərpicdən fərdi yaşayış evləri tikilib. Yerli sakinlərin təşəbbüsü, daxili imkanlar hesabına yollar təmir edilib, kəndə gediş-gəliş asanlaşıb. Elektrik enerjisi və digər yanacaq növləri ilə təchizat əvvəlki illərlə müqayisədə yaxşılaşıb.

Müsahibim Nəsib Əliyev 1968-ci il fevral ayının 1-də bu kənddə dünyaya göz açıb. Atası Simran el-obada halal, zəhmətkeş insan kimi tanınır. Nəsib uşaqlıqdan saflığa, düzlüyə, əməyə alışıb. 1985-ci ildə Nücü kənd tam orta məktəbini bitirib. Hərbi xidməti başa vurduqdan sonra Bakı şəhərinə köçüb. 2000-ci ildən taleyini Rusiya Federasiyasının Kalininqrad şəhərinə bağlayıb. İyirmi ilə yaxındır ki, bu uzaq diyarda yaşayır. Tikinti sektorunda çalışan Nəsib oraya işləməyə gələn həmyerlilərimizə arxa-dayaq durur, onların işlə təmin olumasına, qeydiyyat və miqrasiya məsələlərinin həllinə köməklik göstərir.

Nəsib bildirir ki, Vətəni heç vaxt unutmur, daim rayonla, doğmaları ilə əlaqə saxlayır. Vaxt tapan kimi Lerikə gəlir, uşaqlıq, gənclik illərini yaşadığı doğma kəndə üz tutur. Onunla ata ocağında görüşüb söhbətləşirik.

N.Əliyev Kalininqradda yaşayan soydaşlarımızın vahid ideya və amal ətrafında sıx birləşdiklərini bildirir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideyasının Vətəndən uzaqlarda uğurla reallaşdığını, soydaşlarımızın həmrəyliyinin, birliyinin getdikcə möhkəmləndiyini qeyd edir. Qürbətdə yaşasalar da doğma Azərbaycanı, ana dilimizi heç vaxt unutmur, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi ləyaqətlə yaşadırlar. Soydaşlarımız azərbaycanlı olduqlarına görə qürur, fəxarət hissi keçirir, ölkəmizin həqiqətlərini digər xalqların, millətlərin arasında yaymağı özlərinin vətəndaşlıq borcu bilirlər.

Həmsöhbətim Nəsib Əliyev Azərbaycan Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasını televiziya vasitəsilə izlədiyini vurğulayaraq dedi:

- Ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, əmin-amanlıq, sürətli inkişaf qərib diyarda yaşayan həmyerlilərimiz kimi məni də ürəkdən sevindirir. Dünyada baş verən iqtisadi tənəzzülə baxmayaraq respublikamızda irimiqyaslı layihələr uğurla icra edilir. Müstəqil Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. 2018-ci il daxili və xarici siyasətlə qazanılmış yeni uğurlarla tarixə çevrilib. Əldə olunan nailiyyətlər ardıcıl, məqsədyönlü şəkildə həyata keçirilən islahatların, vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə göstərilən dövlət qayğısının parlaq təzahürüdür.

Müstəqil Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Beynəlxalq aləmdə irimiqyaslı enerji, nəqliyyat, infrastruktur layihələrin təşəbbüskarı, fəal iştirakçısı, dünya kosmos ailəsinin üzvü, etibarlı tərəfdaş kimi tanınır. Hər birimiz milli mənsubiyyətimizlə qürur duyuruq.

- Hər dəfə kəndə gələndə çox sevinir və həm də kövrəlirəm, - deyə Nəsib Əliyev söhbətini davam etdirir. Uşaqlıq çağları, məktəb illəri, acılı-şirinli xatirələr yada düşür. İllər kino lenti kimi gözlərim önündən keçir. Orta təhsil aldığım məktəb çiy kərpicdən tikilmişdi. Darısqal otaqlarda dərs keçirdik. Kəndin işıqları tez-tez söndüyündən gecələr lampa işığında otururdıq. Rayon mərkəzinə, qonşu Masallı rayonuna getmək üçün maşın olmazdı. O vaxt yollar da indiki kimi deyildi. Qarlı-çovğunlu havalarda, yazda və payızda Viləş çayının səviyyəsi qalxanda yol bağlanar, Masallıya, dükan-bazara getmək xeyli çətinləşərdi.



Bu gün sovet dövrünün qayğılarından, problemlərindən əsər-əlamət qalmayıb. Müstəqillik illərində Lerik və onun kəndləri xeyli inkişaf edib. Rayon mərkəzi ilə yanaşı kəndlərdə də tikinti, abadlıq işləri vüsət alıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyev regionların, o cümlədən Lerikin də inkişafına xüsusi qayğı göstərir. Dörd dəfə rayonumuza səfər edib. Mən bu səfərləri Kalininqradda televiziya vasitəsilə diqqətlə izləyirdim. Hər səfər yeni obyektlərin təməlqoyma və açılış mərasimləri, sakinlərlə səmimi görüşlərlə yadda qalıb. Dövlətimizin başçısı keçən il oktyabr ayının 15-də Lerikə növbəti səfərində Piran-Hamarat-Vijaker avtomobil yolunun, Lerik şəhərində elektrik stansiyasının, Bayraq muzeyinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən 100 yerlik körpələr evi-uşaq bağçasının açılışlarında şəxsən iştirak edərək rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Həmçinin Lerik şəhərində içməli su təchizatı sisteminin yenidən qurulması, ilk dəfə olaraq kanalizasiya sisteminin yaradılması layihəsinin icrasının yekunlaşması ilə əlaqədar keçirilən mərasimdə iştirak etdi.

Cənab Prezidentin yüksək qayğısı sayəsində rayon mərkəzindən Zuvand ərazisinə, 50-ci kilometrdən Xanagah istiqamətinə asfalt yollar çəkilib. 56 kilometrlik Lənkəran-Lerik avtomobil yolu əsaslı şəkildə yenidən qurulur. Son illər rayonda 50-dən çox məktəb binası tikilib və əsaslı təmir edilib. Rayon icra hakimiyyəti, Heydər Əliyev Mərkəzi üçün yeni binalar inşa olunub. Rayon mərkəzi xəstəxanası, mədəniyyət evi əsaslı təmir edilərək müasir avadanlıqlarla təchiz edilib. İlk dəfə olaraq rayon mərkəzinə və 50-yə yaxın kəndə təbii qaz xətləri çəkilib, əhali mavi yanacaqdan istifadə edir. Bu iş mərhələli şəkildə görüldüyündən yaxın illərdə rayonun bütün kəndlərini əhatə edəcəkdir.

Lerik qəsəbəsinə şəhər statusu veriləndən sonra rayon mərkəzi başdan-başa abadlaşıb, yeniləşib. Təzə inzibati binalar, çoxmərtəbəli yaşayış evləri, sosialyönümlü çoxlu obyektlər tikilib. Lənkəran-Lerik yolu boyunca istirahət və turizm mərkəzləri salınıb. Lerik respublikamızda və onun hüdudlarından uzaqlarda həm də qabaqcıl turizm diyarı kimi tanınır. Kalininqradda yerli sakinlərə doğma rayonumuzun turizm imkanları barədə söhbətlər edir, onun unikal təbiəti, mənzərəli yerləri, zəngin mətbəxi haqqında çəkilmiş video-süjetləri nümayiş etdiririk.

Müstəqilliyin bəhrələrini boya-başa çatdığım Nücü kəndinin timsalında görmək mümkündür. Dövlət vəsaiti hesabına kənddə ikimərtəbəli, müasir avadanlıq və inventarlarla təchiz edilmiş tam orta məktəb binası tikilib. Şagirdlər müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edərək biliklərə yiyələnirlər. Kənddə internet istifadəçilərinin sayı getdikcə artır. Müasir texnologiyalar kəndimizi dünyanın uzaq şəhərləri ilə birləşdirir. Kəndin MDB məkanında və xarici ölkələrdə yaşayan yetirmələri valideynləri, qohumları, doğmaları ilə onlayn, birbaşa əlaqə yaradırlar.

Kənddə əksəriyyətinin minik maşını var. Nəqliyyat sarıdan heç bir problem yoxdur. Hər evdə, ocaqda rahatlıq, gözəl məişət şəraiti yaradılıb. Yerli əhali əkin-biçinlə məşğul olur, malqara, qoyun-quzu bəsləyir, şəxsi təsərrüfat hesabına dolanır. Möhtərəm Prezidentimizin söylədiyi "Azərbaycanın hər bir guşəsi, hər bir rayonu, kəndi inkişaf etməlidir. Azərbaycanda gedən uğurlu iqtisadi siyasətin nəticəsini hər bir vətəndaş hiss etməlidir" fikirləri artıq reallığa çevrilib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**


## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti

## Xidməti atların təminatına dair yemlərin, yeməkxana və mətbəx avadanlıqlarının təmiri və texniki qulluq göstərilməsi işlərinin satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

| Tender 4 (dörd) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Yemlik arpa və venəmirin satın alınması | 450 |
| Lot 2 | Yonca otunun satın alınması | 160 |
| Lot 3 | Yeməkxana və mətbəx avadanlıqlarının təmiri və texniki qulluq göstərilməsi işlərinin satınalınması | 300 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h:AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 04 mart 2019-cu il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafikini isə möhürlənmiş ikiqat zərfdə 13 mart 2019-cu il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 14 mart 2019-cu il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**



## LƏNKƏRAN MƏRKƏZİ RAYON XƏSTƏXANASI

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 10 lot üzrə keçirilir:**
**lot 1** - Yumşaq inventarların alınması
**lot 2** - Bərk inventarların alınması
**lot 3** - Avadanlığın alınması
**lot 4** - Tibbi avadanlığın alınması
**lot 5** - Tibbi avadanlığın təmiri
**lot 6** - Digər maşın və avadanlığın alınması
**lot 7** - Tibbi digər maşın və avadanlığın alınması
**lot 8** - Dəftərxana, dezinfeksiya və təsərrüfat xərcləri
**lot 9** - Cari təmir işləri
**lot 10** - Əsaslı təmir işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Nizami küçəsi 64 (Əlaqələndirici şəxs: Qadir Ağayev, telefon: (025) 254-49-47) ünvanından ala bilərlər .

**İştirak haqqı**
**lot 1 - 50 manat**
**lot 2 - 50 manat**
**lot 3 - 50 manat**
**lot 4 - 50 manat**
**lot 5 - 50 manat**
**lot 6 - 50 manat**
**lot 7 - 50 manat**
**lot 8 - 50 manat**
**lot 9 - 50 manat**
**lot 10 - 50 manat**

*Hesab:*
*AZ25CTRE00000000000002122031 fond 7Y büdcə səviyyə kodu 142340*
*VÖEN: 2600164831*
*Bank: DXA*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: BİK CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər: İddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumatı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 4 mart 2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 mart 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Nizami küçəsi 64 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 mart 2019-cu il saat 15:00 tarixində Lənkəran şəhəri, Nizami küçəsi 64 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**



## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən 2019-cu il üçün "ASAN xidmət" mərkəzlərində avadanlıqlara (havalandırma, generator, UPS və s.) texniki dəstək xidmətinin göstərilməsi üçün elan olunmuş açıq tender üzrə iştirakçı sayı 3(üç)-dən az olduğu üçün sənədlərin qəbulu 08.02.2019-cu il tarixə, tender təklif və bank təminatının təqdim olunması 15.02.2019-cu il tarixə qədər uzadılır.

Zərflərin açılışı 18.02.2019-cu il tarixdə, saat 12:00-da Ak.Həsən Əliyev prospekti 36 baş tutacaqdır

Maraqlanan təşkilatlar 444 74 44 (daxili: 24 53) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Sənədlər Ak. Həsən Əliyev prospekti 36 ünvanında qəbul olunur.

**Əlaqələndirici şəxs: Kamal Səfərov**

**Tender Komissiyası.**


## DÜNYA BUGÜN
### FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### ❑ NİKOLAS MADURODAN VENESUELA XALQINA SƏFƏRBƏRLİK ÇAĞIRIŞI



Venesuela prezidenti Nikolas Maduro yanvarın 23-də Karakasdakı mitinqdən sonra sosial media hesabından ölkə vətəndaşlarına müraciət edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, ABŞ ilə bütün diplomatik əlaqələrə son qoyduğunu ifadə edən Nikolas Maduro bu ölkənin diplomatlarına Venesueladan çıxmaları üçün 72 saat möhlət verildiyini bəyan edib. Ölkədə çevriliş təhlükəsinin olduğuna diqqət çəkən prezident xalqı tədbirli olmağa çağırıb.

Nikolas Maduro deyib: "Cəsur və döyüşçü Venesuela xalqını, vətənin bütövlüyünü müdafiə etmək üçün küçələrə axışmağa və səfərbər olmağa çağırıram. Çevrilişə və xaricilərin ölkəmizin daxili işlərinə müdaxiləsinə icazə verməməliyik".

Eyni zamanda, ABŞ-ın dövlət katibi Mayk Pompeo bildirib ki, Birləşmiş Ştatlar Venesuelada Nikolas Maduronun prezidentliyini tanımır və bu ölkədəki diplomatları təhlükə altına qoyan hər bir kəsi məsuliyyətə cəlb etmək üçün müvafiq tədbirlər görəcək. Bu barədə "Report" agentliyi xəbər verib.

"Birləşmiş Ştatlar Venesuela ilə diplomatik münasibətləri dəstəkləyir və bizim missiyaya Venesuelada qalmağı təklif edən müvəqqəti prezident Xuan Quaido hökuməti ilə əlaqələri saxlayacaq", - deyə Pompeo bildirib.

Mayk Pompeonun sözlərinə görə, Vaşinqton "sabiq prezident" Nikolas Maduronun ABŞ-la diplomatik əlaqələri kəsmək hüququnu tanımır.

Xatırladaq ki, yanvarın 23-də Venesuelada müxalifət lideri, parlamentin sədri Xuan Quaido özünü müvəqqəti prezident elan edib. Birləşmiş Ştatlar və daha 34 ölkə onun prezidentliyini tanıyıb. Rusiya, Meksika, Boliviya və Türkiyə isə Nikolas Maduronu dəstəklədiklərini bildiriblər.

Son məlumatlara görə, Venesuelada baş verən etiraz aksiyaları zamanı 218 nəfər həbs edilib, azı 16 nəfər həlak olub.

### ❑ İRAN ORDUSU DÖYÜŞƏ HAZIR VƏZİYYƏTƏ GƏTİRİLİB



İran ordusunun Strateji Araşdırma Mərkəzinin rəhbəri, briqada generalı Əhməd Rza Purdastan Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin minlərlə İŞİD terrorçusunu Əfqanıstana yerləşdirdiyini iddia edib.

"Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Əhməd Rza Purdastan Tehranda İran ordusunun yaradılmasının 40 illiyi münasibəti ilə keçirilən konfransda bölgədə İŞİD-in mövcudluğu barədə danışarkən dilə gətirib.

General həmçinin qeyd edib ki, İraqın Diyala vilayətində İŞİD yenidən hərəkətə keçib. O deyib: "Hazırda 7 min İŞİD terrorçusu Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri tərəfindən Əfqanıstana yerləşdirilib. Adı çəkilən ölkələr oyun oynayır və imperialist qüvvələr isə davamlı olaraq onlara əlavə qüvvə göndərir".

Eyni zamanda, Əhməd Rza Purdastan İran Quru Qoşunlarının mümkün təhlükələrə qarşı fasiləsiz olaraq hazırlıq səviyyəsində olduğunu vurğulayıb. "Əgər bizə qarşı hücum etməyə cəhd edərlərsə, ciddi cavab alacaqlar. Bundan əlavə, hava qoşunlarımız da müntəzəm olaraq sərhədlərə nəzarət edir. Ölkəmizin maraqlarına qarşı hər hansı bir hərəkətlilik olarsa, əsgərlərimizə atəş açmaq əmri verilib", - deyə general qeyd edib.

### ❑ MALAYZİYADA YENİ KRAL SEÇİLİB



Malayziya müstəqillik tarixinin sayca XVI kralını seçib. "Report" agentliyinin məlumatına görə, Malayziya Hökmdarları Məclisinin Terenqqanu ştatının sultanı Mizan Zeynal Abidinin sədrliyi ilə keçirilən iclasında Pahanq ştatının sultanı Abdullah Riayətüddin əl-Mustafa Billah ölkənin növbəti kralı elan olunub.

Konstitusiyaya görə, Malayziyada əsasən təmsilçi roluna malik olan, ölkədə islamın himayəçisi sayılan və həmçinin ali baş komandan vəzifəsini də icra edən kral ölkənin 9 ştatının vərəsəlik başçıları olan sultanlar tərəfindən rotasiya qaydası ilə beşillik müddətə seçilir.

Əvvəlki kral V Məhəmməd cəmi iki il hakimiyyətdə olduqdan sonra ötən ilin sonunda Rusiya vətəndaşı, vaxtilə Moskva gözəllik müsabiqəsinin qalibi ilə evlənib və yanvarın əvvəllərində səhhətilə bağlı taxt-tacdan imtina etmişdi. Kralın taxt-tacdan imtinası Malayziyada ilk belə hadisə olaraq ictimaiyyətdə böyük şok effekti yaratmışdı.

Məlumat üçün qeyd edək ki, idman həvəskarı olan 59 yaşlı kral FİFA şurasının üzvü, Asia Hokkey Assosiasiyasının prezidenti, Beynəlxalq Hokkey Federasiyasının İcraçı Şurasının üzvü, Malayziya Futbol Assosiasiyasının sabiq prezidentidir. Yeni kralın taxt-taca çıxma mərasimi yanvarın 31-də keçiriləcək.

### ❑ ƏRDOĞANLA PUTİN VACİB BƏYANATLARLA ÇIXIŞ EDİBLƏR



Moskvada çərşənbə günü Rusiya prezidenti Vladimir Putinlə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında danışıqlar baş tutub. Bu barədə "Sputnik" informasiya agentliyi məlumat yayıb.

Verilən xəbərə görə, Türkiyə prezidentinin Rusiyaya işgüzar səfəri çərçivəsində keçirilən görüşdən sonra dövlət başçıları mətbuat konfransında çıxış ediblər.

Konfrans zamanı Vladimir Putin danışıqları çox məhsuldar dəyərləndirib və Suriya mövzusunun görüşdə əsas yer tutduğunu bildirib.

Vladimir Putin ABŞ hərbçilərinin Suriyada qeyri-qanuni olduğunu bir daha xatırladaraq deyib: "Onları rəsmi Dəməşq dəvət etməyib, BMT-nin də bu barədə qərarı yoxdur".

Bununla yanaşı, Rusiya prezidenti amerikalı hərbçilərin Suriyadan çıxmasının müsbət addım olduğunu, bunun ölkədə vəziyyəti sabitləşdirməyə yardım edəcəyini vurğulayıb.

Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan isə amerikalı hərbçilərin Suriyadan çıxmasından sonra hakimiyyət boşluğuna yol verməməyə çağırıb. O, Suriyada konstitusiya komissiyasının yaradılmasını sürətləndirməyin vacibliyini qeyd edib.

### ❑ SURİYA İSRAİLİN HAVA LİMANINI VURMAQLA HƏDƏLƏDİ



Rəsmi Dəməşq İsrailin Suriyaya zərbələrinə qarşılıqlı cavab verəcəyini bildirib. "Sputnik" informasiya agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bunu Suriya Ərəb Respublikasının BMT-dəki daimi nümayəndəsi Bəşər əl-Cəfəri bəyan edib.

"Ya Təhlükəsizlik Şurasının qərar qəbul etmək vaxtı çatıb, ya da Suriya öz qanuni müdafiə haqqından istifadə etməli və İsrailin Dəməşq beynəlxalq hava limanına zərbələrinə qarşılıq olaraq Təl-Əviv hava limanına zərbələr endirməklə, bu şura üzvlərinin diqqətini cəlb etməlidir", - deyə Bəşər əl-Cəfəri qeyd edib.

Xatırladaq ki, İsrail bazar ertəsinə keçən gecə Suriyanın paytaxtı Dəməşqə yerdən və havadan idarə olunan raketlərlə kütləvi zərbələr endirib. Suriyanın raket hücumundan müdafiə sistemləri raketlərin əksəriyyətini havada məhv edib.

Eyni zamanda, İsrail ordusu öz növbəsində İranın Suriyadakı "Əl-Qüds" bölməsinə hücum etdiklərini bəyan edib. Aviazərbələrin Suriyanın qərb, cənub-qərb və cənub ərazisindən endirildiyi bildirilir. Aviazərbələr nəticəsində 4 Suriya hərbçisi həlak olub, 6-sı isə yaralanıb.

### ❑ SƏUDİYYƏ ƏRƏBİSTANINA SİLAH QADAĞASI QALMAQALA SƏBƏB OLUB




Almaniyanın Səudiyyə Ərəbistanına silah satışını qadağan etməsi bu ölkədə gərginliyə səbəb olub. "Sputnik" informasiya agentliyinin məlumatına görə, Səudiyyə Ərəbistanına silah satışı qadağan edildikdən sonra Almaniyanın silah şirkəti olan "Rheinmetall Group" hökuməti məhkəməyə verəcəyi ilə təhdid edib.

Bildirilir ki, Almaniya hökuməti jurnalist Camal Kaşıkçının qətlə yetirilməsindən sonra Səudiyyə Ərəbistanına silah satışını qadağan edib.

Əgər embarqo davam edərsə, Almaniyanın silah şirkəti İqtisadiyyat Nazirliyini məhkəməyə verəcəkləri ilə bağlı xəbərdarlıq edib.

Verilən xəbərə görə, ölkənin İqtisadiyyat Nazirliyi isə hökumətin hələ də Səudiyyə Ərəbistanına silah ixracını təsdiq etmə niyyətində olmadığını bildirib.

Eyni zamanda, "Rheinmetall Group" rəhbərliyi itkilər üçün təzminat tələb etməməsi vəziyyətində səhmdarların şirkəti məhkəməyə verəcəklərindən qorxur. İqtisadiyyat Nazirliyinin sözçüsü isə "Rheinmetall Group" ilə bağlı şərh verməkdən çəkinib. ■

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### Daş hasarın üzərinə tikanlı məftilin quraşdırılması xidmətinin satınalınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 1-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### Yuyucu vasitələrin satınalınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 1-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### Abraziv qumun satınalınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 1-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

TƏKRAR

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi statistik nəşrlərin, blankların çap edilməsi, sənədlərin cildlənməsi işlərinin satınalınması məqsədilə poliqrafiya fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxsləri

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tenderin predmeti:**

**Statistik nəşrlərin, blankların çap edilməsi, sənədlərin cildlənməsi işlərinin satınalınması.**

Tenderin səlahiyyətli İddiaçıları:

Tenderdə “Dövlət satınalınmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında 2018-ci il 21 dekabr tarixli qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

-iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;

-müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;

-iddiaçılar tender üzrə 1000 manat iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Qasımova Qönçə, telefon: (012) 538-62-57).

*Adı: Dövlət Statistika Komitəsi*
*Hesab №-si: AZ59CTRE00000000000002238401*
*VÖEN: 1300189411*
*Benefisar (alan) bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*SWİFT BİK: CTREAZ22*
*XHK: 2238401(002353)*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə aidiyyəti orqanlar tərəfindən (vergi orqanı, DSMF) verilmiş arayışlar;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının ixtisasına dair məlumatlar;*

*-işlərin keyfiyyətinə dair zəmanət.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində notariat qaydasında təsdiq olunmuş tərcümələri ilə birlikdə təqdim edilməlidir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün iddiaçının potensial imkanları (müasir poliqrafiya avadanlığının, peşəkar kadr heyətinin mövcudluğu və s.), analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2019-cu il 13 fevral saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 2019-cu il 22 fevral saat 18:00-a qədər Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanına (əlaqələndirici şəxs: Qasımova Qönçə, telefon: (012) 538-62-57) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2019-cu il fevral ayının 25-i saat 12:00-da yuxarıda qeyd olunan ünvanda, 414-cü otaqda açılacaqdır.

**Tender Komissiyası.**

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### akkumlyatorların satınalınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 1-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, “Çinar plaza”, 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Göyçay Rayon Mərkəzi Xəstəxanası 2019-cu il ərzində aşağıda adları göstərilən malların (iş və xidmətlərin) satınalınması məqsədilə

## KOTİROVKA SORĞUSU MÜSABİQƏSİ ELAN EDİR

**1.** Cari təmir
**2.** Əsaslı təmir
**3.** İnventarın alınması
**4.** Avadanlıqların alınması
**5.** Digər maşın və avadanlıqlar
**6.** Dəftərxana və təsərrüfat xərcləri
**7.** Mətbəə xərcləri
**8.** İdarənin digər xərcləri
**9.** Digər nəqliyyat xidməti
**10.** İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi
**11.** Kommunikasiya xidmətləri ilə bağlı digər xərclər
**12.** Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması
**13.** Digər müavinət və transferlər.

Maraqlananlar Göyçay rayon Nizami-183 ünvana müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs:** *Tahir Əzizov*
**Əlaqə tel.:** *0-20-27-4-18-40*

**Tender Komissiyası.**

## Holcim (Azərbaycan) ASC səhmdarlarının nəzərinə!

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağı 2019-cu il aprel ayının 24-də səhər saat 10:00-da Bakı şəhəri, AZ 1065, İzmir küçəsi 1033 ünvanında yerləşən “Hyatt Regency” Hotelin Görüş və Konfrans Mərkəzində yerləşən Quba zalında keçiriləcəkdir.

**Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının 24 aprel 2019-cu il tarixində keçiriləcək səhmdarların İllik Ümumi Yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağının sədrinin seçilməsi.
2. Müşahidə Şurasının üzvlüyündə dəyişikliklərin təsdiq edilməsi.
3. Təftiş Komissiyasında dəyişikliklərin təsdiq edilməsi.
4. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin 2018-ci ilin maliyyə nəticələrinə dair illik hesabatın təsdiq edilməsi.

**“ASK Ayaqqabı fabriki” 18 yanvar 2019-cu ildə keçirilən açıq tenderin nəticələri Lot-1 Üzlük dəri-Seyfulla & Kövsər MMC lot-2 Vulkanlaşdırılmış rezin qarışığı - Dariservis MMC qalib müəyyən edilmişdir.**

TƏKRAR

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Açıq tenderə dəvət edir:

Tender 1 lot üzrə keçirilir:

Lot 1 - Azərbaycanın görkəmli ədəbiyyat xadimlərinin təntənəli yubiley tədbirlərinin keçirilməsi, ədəbi müsabiqələrin, festivalların mükafatlandırma mərasimlərinin, poeziya günlərinin, yerli və beynəlxalq əhəmiyyətli iclasların, konfransların, müşavirələrin təşkili işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi (Əlaqələndirici şəxs: Aslan Cəfərov, 012-493-30-05) ünvanından ala bilərlər.

İştirak haqqı
Lot 1 - 200 manat
Hesab:
AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZO1360100000000003944
S.W.İ.F.T.: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: son 3 ildə (illər üzrə) görülmüş işlər və onun ümumi dəyəri haqqında məlumat; İddiaçının son bir illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr, həmçinin bu məlumatları əldə etmək məqsədi ilə müraciət ediləbiləcək şəxslərin adı, telefonu; Tədbirlərin təşkili üzrə analoji iş təcrübəsi barədə məlumat; yekun müqaviləsinin yerinə yetirilməsində istifadə ediləcək əsas avadanlıqlar haqqında məlumat; yekun Müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edən və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri haqqında məlumat; Dövlət Sosial Müdafiə Fonduna verilmiş hesabatın surəti və Dövlət Sosial Müdafiə Fondunun arayışı, Məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

